RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 252 (8275) CÜMƏ AXŞAMI, 14 noyabr 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





## Xalqa xidmət missiyası

### Prezident İlham Əliyev yeni kadr islahatları ilə daha çevik, daha mobil və müasir çağırışlara dərhal reaksiya verə bilən struktur formalaşdırır

"Ölkəmizdə kadr islahatları davam edir. Kadr islahatları ümumi islahatların tərkib hissəsidir. Keçənilki prezident seçkilərindən sonra yeni islahatlar dövrünə start verildi və bu islahatlar davam etdirilir. Sual yarana bilər ki, əgər ölkədə sürətli inkişaf təmin edilirsə, islahatlara ehtiyac varmı? Birmənalı olaraq cavab verə bilərəm ki, bəli, islahatlara ehtiyac var. İslahatlar təkmilləşmə deməkdir, islahatlar yeni dövrə uyğunlaşma deməkdir, islahatlar tərəqqi deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilibdir".

Noyabrın 12-də Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarına yeni təyin olunan icra hakimiyyəti başçılarını qəbul edən Prezident İlham Əliyev bir daha bəyan etdi ki, ölkədəki siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir.

Dövlət başçısının bu görüşlər zamanı səsləndirdiyi fikirlərdən bəlli olur ki, kadr ishalatları getdikcə daha da dərinləşəcək. Elə son 15 gün ərzində 2 şəhər, 5 rayon icra hakimiyyəti başçısının vəzifədən azad olunub yerlərinə gənc kadrların təyin edilməsi bunu deməyə əsas yaradır.

Əgər dövlət başçısı 2018-ci il prezident seçkisindən sonra ölkədə sosial-iqtisadi islahatların daha da dərinləşəcəyini söyləmişdisə, bu il oktyabrın 17-də keçirdiyi iqtisadi müşavirədə isə struktur və kadr islahatlarının anonsunu vermişdi. Bu gün həm dünya birliyi, həm də ölkə ictimaiyyəti bu islahatlara şahidlik edir. Hazırkı mərhələ daha çox kadr islahatları mərhələsi kimi görünsə də, bir qədər diqqət etsək, bunun digər komponentlərlə paralel həyata keçirildiyini görə bilərik.

Öncə son ildə həyata keçirilən uğurlu sosial islahatlar xalqın rifah halının yaxşılaşmasına xidmət edir. Dövlət başçısının söylədiyi kimi, yoxsulluğun aşağı səviyyəyə düşməsinin əsas səbəbi ondan ibarətdir ki, həyata keçirilən iqtisadi islahatlar, o cümlədən sosial sahə böyük diqqətlə əhatə olunur. Bu il 4 milyon 200 mindən çox insan çox geniş sosial paketlə əhatə olunub və minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə artıb. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faiz, müavinətlər isə 2 dəfə çoxalıb.

Bu il həmçinin orta əməkhaqqı 35 faiz artıb və hazırda Azərbaycanda orta əməkhaqqı 723 manat təşkil edir. Prezident bu rəqəmin yüksələcəyini də əminliklə vurğuladı: "Əminəm ki, gələcək illərdə bu rəqəm artacaq. İlk növbədə ona görə ki, həm maaşlar artacaq, eyni zamanda, biz kölgə iqtisadiyyatına qarşı ciddi mübarizə apararaq, artıq 100 mindən çox iş yerini kölgədən çıxarıb və onları rəsmiləşdirə bilmişik və bu proses davam edəcək. Biz hələ işin başlanğıc mərhələsindəyik. Amma orta əməkhaqqının 35 faiz artırılması və 723 manata çatdırılması, əlbəttə ki, sosial siyasətimizin bariz nümunəsidir".

Beynəlxalq təşkilatların da hazırladıqları hesabatlarda Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparıldığı qeyd olunur. Dünya Bankının "Doing Business 2020" hesabatında da Azərbaycanın dünyanın ən çox islahat aparan 20 ölkəsindən biri kimi seçilməsi, Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılan rəy sorğusunda əhalinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevi - islahatların rəhbərini dəstəkləməsi söylənilənlərin real təsdiqidir.

Əlbəttə ki, Prezidentin söylədiyi kimi, bütün bu müsbət nəticələri qorumaq və onları artırmaq üçün mütləq kadr islahatı da aparılmalıdır. Bu məqsədlə Azərbaycanda hazırda çox ciddi kadr islahatları gedir: "Təcrübə qazanmış kadrlar daha da səmərəli öz işlərini qururlar, eyni zamanda, gənclərə də böyük meydan verilir. Bu, təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, eyni zamanda, vətənə bağlı olsunlar.

Ardı 4-cü səh.

## Azərbaycan humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiyasının Federasiya Şurasının Regional məsələlər üzrə komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsəidovu və Dağıstan Xalq Məclisi sədrinin müşaviri Məhəmməd Qurbanovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz.

Çox şadam ki, siz mühüm tədbirdə - dünya dini liderlərinin sammitində iştirak edəcəksiniz. Bu, ölkəmiz üçün çox mühüm hadisədir. Zənnimcə, bütün iştirakçılar üçün də belədir. Mən çox şadam ki, Rusiya Federasiyası çox yüksək səviyyədə, Federasiya Şurasının rəhbərliyi, qardaş Dağıstanın rəhbərliyi səviyyəsində təmsil olunub və zati-müqəddəsləri, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin də, müxtəlif ölkələrdən olan çoxsaylı qonaqların da iştirakı gözlənilir. Zənnimcə, bu tədbir mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun gələcək inkişafına yaxşı təkan verəcək.

Bildiyiniz kimi, Azərbaycanda bu qəbildən olan çoxlu tədbirlər keçirilir. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə müntəzəm olaraq keçirilən Bakı Humanitar Forumu, ənənəvi Mədəniyyətlərarası Dialoq Forumu beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESKO və digər təşkilatlar tərəfindən dəstəklənir. Beləliklə, Azərbaycan artıq çoxdandır ki, xalqları, müxtəlif dinlərin nümayəndələrini yaxınlaşdıran humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrilib.

Ardı 2-ci səh.

## Azərbaycan-İran əlaqələri yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Çox şadam ki, qardaş ölkə sabah keçiriləcək dünya dini liderlərinin Zirvə Görüşündə yüksək səviyyədə iştirak edəcək. Həm bu Zirvə Görüşündə iştirak çox önəmlidir, eyni zamanda, yaxşı fürsətdir ki, ikitərəfli məsələləri də müzakirə edək.

Bildiyiniz kimi, bu yaxınlarda İran İslam Respublikasının Prezidenti cənab Ruhani Azərbaycanda səfərdə idi, Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak edirdi. Səfər çərçivəsində bizim görüşümüz olmuşdur. Çox yaxşı görüş oldu. Görüş zamanı gündəlikdə duran bir çox ikitərəfli məsələləri müzakirə etdik. Bir daha gördük ki, İran-Azərbaycan əlaqələri yüksək səviyyədədir, uğurla inkişaf edir. İmzalanmış bütün sənədlər, əldə olunmuş razılaşmalar icra edilir. Bu, onu göstərir ki, əlaqələr çox səmərəlidir və yaxşı nəticə verir.

Ardı 2-ci səh.

## 2020-ci ilin dövlət büdcəsi inkişafın real göstəricisi olacaq

Milli Məclisin noyabrın 13-də keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi (birinci oxunuş) davam etdirildi.

### Xərclərin artımı inkişaf proseslərinin nəticəsidir

Parlamentin Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev dedi ki, büdcə xərclərində baş verən keyfiyyət dəyişiklikləri ölkədə gedən inkişaf proseslərinin nəticəsidir. Respublikamızda aparılan iqtisadi islahatlar öz bəhrəsini verməkdədir.

Daha sonra Eldar Quliyev qeyd etdi ki, hazırda Bakı ətrafı kənd və qəsəbələrdə əhali sıxlığının artması ilə əlaqədar bəzi orta məktəblərdə yeni korpusların tikilməsinə ehtiyac yaranıb. Zabrat və Maştağa qəsəbələri ilə bağlı bəzi sosial məsələləri diqqətə çatdıran deputat, həmçinin bəzi ərazilərdə daxili və məhəlli yolların yenidən qurulmasını təklif etdi.

Deputat Mirzəcan Xəlilov diqqətə çatdırdı ki, Sumqayıtın Corat qəsəbəsində yeni uşaq bağçasının tikintisinə ehtiyac var.

"2020-ci ilin büdcəsi ümumdünya inkişaf templərinə yaxındır. Bu barədə danışan deputat Tahir Kərimli dedi ki, bütün bunlar ölkə rəhbərinin iradəsi sayəsində mümkün olub. Müdafiə xərclərinin növbəti illərdə də artırılmasının vacibliyini önə çəkən deputat, həmçinin Ağsu rayonunda bəzi kəndlərə yeni yolların çəkilməsini, nəqliyyat sıxlığını azaltmaq üçün Bakıda Bayıldan Zığa qədər gəmi xəttinin yaradılmasını təklif etdi.

Ardı 3-cü səh.

DOING BUSINESS 2019

## Azərbaycan bir çox sahələr üzrə hətta inkişaf etmiş ölkələrdən də öndədir

### Bunu biz yox, nüfuzlu beynəlxalq maliyyə qurumları və reytinq agentlikləri deyir

Biz yazanda ki Azərbaycanda ardıcıl surətdə, tələsmədən, eyni zamanda yubanmadan aparılan sosial-iqtisadi islahatlar nəticəsiz qalmayıb, ölkənin dinamik inkişafını təmin edir, bizə qloballaşma dövrünün tələbləri ilə nəinki ayaqlaşmağa, hətta onu önləməyə imkan verir, bəziləri ağız büzüb bunu təbliğatın ayağına yazırlar.

Baxmayaraq ki, belələrinin özlərinin də məsələyə qərəzli yanaşmalarını dərk etdiklərinə şübhəmiz yoxdur, bütün hallarda vaxt tapanda onlara cavab vermək lazımdır. Ən azından o üzdən ki, xronoloji qərəz mərəzinə tutulmasınlar, yoxsa dönüb olacaqlar sovet dönəmindəki kimi siyasi iqtisadçılar.

Amma bu dəfə cavabımızı öz rəqəm və mülahizələrimizə deyil, xarici maliyyə qurumlarının və reytinq agentliklərinin hesabatlarına istinadən verəcəyik ki, yenə də bizi təbliğatla məşğul olmaqda ittiham etməyə cəhd göstərməsinlər.

Ardı 6-cı səh.

## İqtisadiyyatımızın uğurları tarazlı və çoxşaxəli inkişafdan qaynaqlanır

Son 15 ildə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkəmizin xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə, dünyada 9-cu yerdəyik. Bu və digər nailiyyətlər Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasətə əsaslanır.

Azərbaycan iqtisadiyyatının inkişafının önəmli cəhəti odur ki, bu inkişaf çoxşaxəlidir, bütün sahələri əhatə edir. Hələ 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramı qəbul olundu. Bu, həmin vaxt reallaşmaqda olan, yeni-yeni bəhrələr verən neft strategiyası ilə yanaşı, digər sahələrin də inkişafına istiqamətlənən fəaliyyət proqramı idi.

2005-ci ildə "Əsrin müqaviləsi" öz kulminasiya nöqtəsinə çatdı - "Azəri-Çıraq-Günəşli" blokunun ən böyük yatağı olan "Azəri"dən neft alındı. Həmin il Bakı-Tbilisi-Ceyhan boru xəttinə ilk neft vuruldu. 2006-cı ilin yayında kəmər tam sistem kimi istifadəyə verildi və bundan sonra ölkəmizin gəlirləri daha da artmağa başladı.

Azərbaycanın bu layihələri həyata keçirərkən yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq əlaqələri daha böyük işlərə yol açdı. Ölkəmiz bütün dünyada etibarlı tərəfdaş kimi tanındı.

Ardı 6-cı səh.

# Azərbaycan humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrilib

*Əvvəli 1-ci səh.*

Əlbəttə, bunlar həm də ikitərəfli gündəliyə aid məsələlər barədə söhbət etmək üçün yaxşı imkandır. Bu gündəlik olduqca zəngindir və yüksək səviyyədə əlaqələr bizim münasibətlərimizin inkişafına çox güclü təkan verir. Mənim Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə bir neçə dəfə görüşüm olub. Pekində "Bir kəmər, bir yol" konfransı zamanı görüşümüzü xüsusi xatırlayıram. Tədbirlər qrafikinin çox gərgin olmasına baxmayaraq, biz bir sıra məsələlər barədə çox ətraflı söhbət etməyə vaxt tapdıq. Rusiya Prezidentinin məni "Valday" forumunda iştiraka dəvət etməsi də bizə hörmət və xoş münasibət əlaməti kimi qəbul edildi. Forum çərçivəsində də Rusiya Prezidenti ilə mənim görüşüm oldu. Biz həmin görüşdə də ikitərəfli gündəliyə aid diskussiyaları davam etdirdik.

Əlbəttə, Valentina İvanovna Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətinizin bu ilin yazında ölkəmizə səfəri də parlamentlərarası istiqamətdə münasibətlərə və bütövlükdə, ikitərəfli gündəliyə aid məsələlərə yaxşı təkan verdi. Buna görə də düşünürəm ki, bu görüş mühüm məsələlərə bir daha nəzər salmaq və əlbəttə, Xızrı İsayeviçin, Məhəmmədin və sizin, - biz ilk dəfə görüşürük, - timsalınızda qardaş Dağıstan nümayəndələrini görməyə çox şadam. Əlbəttə, bizim əziz qardaşımız İlyasa da "Xoş gəlmisiniz" deyirəm, o da bizim qardaş diyarı təmsil edir. Bir daha xoş gəlmisiniz.



❖ ❖ ❖

Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini **İlyas UMAXANOV** dedi:

- Hörmətli İlham Heydər oğlu, vəziyyətlə əlaqədar əsasən Dağıstan təmsilçilərindən ibarət olan Rusiya nümayəndə heyəti ilə görüşmək üçün vaxt tapdığınıza görə Sizə təşəkkür etmək istəyirik. Lakin bununla bərabər, demək istəyirəm ki, əlbəttə, dünya dini liderlərinin sammitində iştirak etmək bizim üçün, əlbəttə, çox vacib idi. Bu, artıq ikinci sammitdir. Mənə birinci sammitdə iştirak etmək xoşbəxtliyi nəsib olub. Bu sammitin gedişini böyük hörmət və maraqla izləyəcəyik. Ona görə ki, Parlamentlərarası İttifaqın Sankt-Peterburqda keçirilmiş 137-ci Assambleyasında parlament rəhbərlərinin ümumdünya konfransının keçirilməsi təşəbbüsü irəli sürüldü. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası həmin konfransın 2022-ci il mayın 21-də Rusiyada keçirilməsi barədə müvafiq qətnamə qəbul etdi. Etnik və konfessiyalararası məsələlərə həsr ediləcək bu konfransa Rusiya Federasiyasının Prezidentinin razılığı alındı. Ona görə də ikinci Sammitdə iştirak etmək, onun gedişini müşahidə etmək bizim üçün, əlbəttə, son dərəcə vacibdir.

Eyni zamanda demək istəyirəm ki, biz Birinci vitse-prezident, çox hörmətli Mehriban Əliyevanın Moskvaya səfərini səbirsizliklə gözləyirik. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılışı olacaq, həmçinin Regionlararası Forum keçiriləcək.

# *Əl-Seyyid Mahmud əl-ŞƏRİF:* "Ölkəmiz beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz Azərbaycana, sizi səmimiyyətlə salamlayıram. Zirvə görüşündə iştirak etməyiniz bizi çox məmnun edir, şadam ki, ölkəniz bu tədbirdə yüksək səviyyədə təmsil olunur. Əlbəttə, səfəriniz yaxşı imkan yaradır ki, biz ikitərəfli münasibətlər haqqında danışaq. Bizim ikitərəfli münasibətlərimiz də uğurla inkişaf edir və bir çox sahələri əhatə edir. Sizin ölkəniz bu yaxınlarda Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşündə yüksək səviyyədə təmsil olunmuşdur və Yekun Bəyannamənin qəbul edilməsində də ölkənizin mövqeyini biz yüksək qiymətləndiririk. Bildiyiniz kimi, növbəti üç il ərzində Azərbaycan bu Hərəkata sədrlik edəcək və bu vəzifəyə çox böyük məsuliyyətlə yanaşırıq. İqtisadi sahədə əlaqələrimizə gəldikdə, deyə bilərəm ki, bu sahədə çox böyük potensial var. Yaxşı siyasi əlaqələrimizi nəzərə alaraq, hesab edirəm, iqtisadi sahədə biznes qurumlarına biz çox ciddi siqnal verməliyik ki, onlar öz fəaliyyətini bir az da genişləndirsinlər. Şadam ki, turizm sahəsində də yaxşı irəliləyiş var, həm Azərbaycan turistləri ölkənizi ziyarət edirlər, həm də ki, Misirdən gələn qonaqların sayı artmaqdadır. Təbii ki, parlamentlərarası əlaqələrə də böyük əhəmiyyət verilir. Əminəm ki, səfər zamanı bu əlaqələrə yeni təkan veriləcək.



Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini **Əl-Seyyid Mahmud əl-ŞƏRİF** dedi:

- Bismillahir-rəhmanir-rəhim. Möhtərəm cənab Prezident, icazə verin, əvvəlcə vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə şəxsən öz adımdan və həmkarlarım adından təşəkkürümüzü bildirim. Bütün Azərbaycan xalqına qonaqpərvərliyə və istiqanlılığa görə dərin təşəkkürümüzü bildiririk. İcazə verin, Misir Ərəb Respublikasının Prezidenti cənab Əbdülfəttah əs-Sisinin şəxsən öz adından və Misir xalqı adından Sizə və Azərbaycan xalqına ehtiramını və dərin təşəkkürünü çatdırım. Şəxsən öz adımdan bildirmək istəyirəm, mən çox xoşbəxt insanam ki, 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevlə Misirdə görüşmüşəm. Bu gün də çox xoşbəxtəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşürəm. Əlbəttə ki, son illər Azərbaycanın bütün sahələrdə, istər iqtisadi, istər infrastruktur, istərsə də bütün sahələrin inkişafı baxımından əldə etdiyi nailiyyətlər digər dünya dövlətlərinə bir nümunədir.

❖ ❖ ❖

Prezident İlham Əliyev onun da salamlarını Misir Prezidenti Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Misirin Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif bildirdi ki, ölkəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan-İran əlaqələri yüksək səviyyədədir

*Əvvəli 1-ci səh.*

Əminəm ki, gələcəkdə bu əlaqələrin inkişafı üçün hər iki tərəf öz səylərini göstərəcək və əldə edilmiş bütün razılaşmalar həyatda öz yerini tutacaqdır.

❖ ❖ ❖

İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri **Abuzər İBRAHİMİ** dedi:

- Çox sağ olun, təşəkkür edirəm. Bizə vaxt ayırdığınıza və bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. İki il bundan əvvəl mənə belə bir fürsət yarandı, xanım Mehriban Əliyeva ilə görüşdüm və indiyədək həmin görüşü xatırlayıram, xoş təəssüratları yadımdadır.

Əvvəlcə, istərdim ki, öz dövlətimin, İran İslam Respublikası dövlətinin və xalqının səmimi salamlarını Sizə çatdırım. Bizimlə Azərbaycan arasında müştərəkliklər, bağlılıqlar çoxdur. Mən uşaqlıqdan Azərbaycan dilini nənəmdən öyrənmişəm. İllər keçdikcə bu dili mənə öyrətdiyinə görə və öz sinəsindən mənim sinəmə bu dili nəql etdiyinə görə həmişə ona dua edirəm.

Bizimlə sizin aranızda bir çox bağlılıqlar, müştərəkliklər var, o cümlədən mədəni sahədə. Buna görə də biz mədəni sahədə bir çox birgə layihələr həyata keçirmişik və əməkdaşlıqlar etmişik. Mədəniyyət Nazirliyi ilə bir çox proqramlar, layihələr icra etmişik, gələcəkdə də bunu davam etdirəcəyik.

❖ ❖ ❖

Söhbət zamanı ölkələrimiz arasında enerji, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsində dövlət başçıları arasında mütəmadi olaraq keçirilən görüşlərin əhəmiyyəti qeyd edildi.

# *Prezident İlham ƏLİYEV:* "Biz dinlər, mədəniyyətlər, ölkələr arasında körpülərin qurulması istiqamətində fəaliyyətimizi davam etdiririk"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonağı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz.

**Malkolm HONLAYN** dedi:

- Sizi görməyə şadam.

**Prezident İlham ƏLİYEV:**

- Gəldiyinizə görə təşəkkür edirəm. Mən sizin sammitdə iştirakınızı yüksək qiymətləndirirəm.

**Malkolm HONLAYN:**

- Bu qədər fikir ayrılığı, bu qədər gərginliyin şahidi olduğumuz bir zamanda Sizin vaxt ayıraraq insanları bir araya gətirmək üçün təşəbbüs göstərməyiniz bir faktdır. Düşünürəm ki, bizim üzərimizə düşən məsuliyyət də burada olub Sizə dəstək nümayiş etdirmək və bunu qiymətləndirməkdir.



**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm. Eyni zamanda, biz çox uğurlu Mədəniyyətlərarası Dialoq üzrə Forum və ənənəvi Bakı Humanitar Forumunu keçiririk. Beləliklə, biz dinlər, mədəniyyətlər, ölkələr arasında körpülərin qurulması istiqamətində fəaliyyətimizi davam etdiririk və Azərbaycan artıq çox fəal dialoq məkanına çevrilib. Düşünürəm ki, belə mühüm tədbirə evsahibliyi etmək üçün doğruzamandır. Ümidvaram ki, o, uğurlu olacaq, yaxşı nəticələr əldə ediləcək.

**Malkolm HONLAYN:**

- Onun keçirilməsi faktının özü bir uğurdur. Bu da bir faktdır ki, Siz və Azərbaycan qlobal, beynəlxalq səviyyədə elə bir nüfuz qazanmısınız ki, bura insanların bir araya gəldiyi bir məkandır.

# Bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir

Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, son illər Azərbaycanın dəmir yollarında görülən işlər və qarşıda duran vəzifələrdən danışan **Prezident İlham ƏLİYEV** dedi:

- Son illər dəmir yolu infrastrukturuna böyük investisiyalar qoyulur. Bu investisiyalar hesabına dəmir yolu infrastrukturu böyük dərəcədə inkişaf etmişdir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Bu, kifayət qədər yüksək göstəricidir, son illərdə aparılan işlərin təzahürüdür. Onu da əlavə etməliyəm ki, nəqliyyat infrastrukturunun səviyyəsinə görə biz dünyada 31-ci yerdəyik. Yəni Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir, keçən il yeni dəniz ticarət limanı, 2017-ci ildə Bakı-Tbilisi-Qars tarixi dəmir yolu istifadəyə verilib, daxili dəmir yolları müasirləşir. Bir sözlə, Davos hesabatında bizim yüksək yerə malik olmağımız reallığı əks etdirir. Ancaq bununla paralel olaraq biz gələcəkdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Çünki ölkəmizin uğurlu inkişafı, o cümlədən nəqliyyat infrastrukturundan asılıdır.



Bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi öz xidmətlərini göstərir. Ümumi rəyə görə, - bu, beynəlxalq təşkilatların hesabatında da əks olunur, - Azərbaycan çox etibarlı və önəmli tranzit ölkəyə çevrilibdir. Mən dəfələrlə demişəm ki, hər bir ölkənin öz tranzit potensialını inkişaf etdirmək üçün, ilk növbədə, qonşu ölkələrlə yaxşı münasibətləri olmalıdır və bu gün bu, reallıqdır. Təkcə son bir-iki ay ərzində mənim dörd qonşu ölkənin rəhbərləri - Rusiya Prezidenti, Türkiyə Prezidenti, İran Prezidenti və Gürcüstanın Baş Naziri ilə görüşlərim olubdur. Bu görüşlərdə, o cümlədən bizim nəqliyyat sahəsində əməkdaşlığa da kifayət qədər böyük vaxt ayrılmışdır. Bir sözlə, bizim tranzit potensialımız gələcəkdə qeyri-neft sektorunun inkişafına daha da böyük dərəcədə xidmət göstərəcək. Bu gün də qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payının çoxaldılması istiqamətində nəqliyyat sektorunun rolu artmaqdadır. Biz hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda son müddət ərzində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaq.

Yəni onu demək istəyirəm ki, vaxtilə Azərbaycanın təşəbbüsü ilə başlanan və bizim böyük maliyyə dəstəyimizlə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolu çox mühüm əhəmiyyət daşıyır. Mən əvvəllər də, biz dəmir yolunun təməlini qoyanda da bunu demişəm ki, bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir. Eyni zamanda biz Şimal-Cənub nəqliyyat dəhlizinə də çox böyük diqqət yetirmişik. Azərbaycan ərazisində bütün işlər yekunlaşıb, o cümlədən İran sərhədinə qədər uzanan dəmir yolunun tikintisi də artıq 2 ildir ki, tamamlanıb. O cümlədən dəmir yolu körpüsü tikilib və hazırda "Şimal-Cənub nəqliyyat dəhlizi" işləyir. 2018-ci ildə bu dəhlizlə daşınan yüklərin həcmi 8 dəfə, bu ilin 9 ayında daha 70 faiz artmışdır. Yəni böyük potensial var və eyni zamanda, "Şimal-Qərb nəqliyyat dəhlizi" işləyir. Rusiyadan, həmçinin İrandan gələn yüklər Qərb istiqamətinə Azərbaycan ərazisindən daşınır. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir. Dəmir yolu nəqliyyatı sahəsindəki əməkdaşlıq ölkələri bir-birinə daha da yaxın edir, təhlükəsizliyi möhkəmləndirir, bölgədə vəziyyəti daha da müsbət istiqamətdə inkişaf etdirir və hər bir ölkəyə böyük iqtisadi dividendlər gətirir.

Eyni zamanda mənim göstərişimlə ölkədaxili dəmir yollarının tikintisi və modernləşdirilməsi istiqamətində addımlar atılır, o cümlədən Bakı şəhərətrafı yolun tikintisi gedir. Bu, Bakı qəsəbələrini şəhərin mərkəzi ilə bağlayan yollardır. Eyni zamanda, bizim turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir. Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdir, buna ehtiyac yox idi, ancaq hazırda buna böyük ehtiyac var. Mən bu təşəbbüsü irəli sürəndə bəziləri fikirləşirdilər ki, buna ehtiyac yoxdur. Halbuki bu yaxınlarda Qəbələdə olarkən mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir. Ancaq söhbət hotellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Yəni 9 ayda Qəbələyə 300 min turist gəlib. Qəbələyə bir yol var - Şamaxı-Qəbələ yolu. O yol da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm trafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda, baxmayaraq ki, "Şimal-Cənub nəqliyyat dəhlizi" işləyir, ancaq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının vəziyyəti bizi qane edə bilməz. Çünki vaxtilə orada təmir işləri aparılmamışdır. Yollar tamamilə yenidən qurulmalıdır ki, qatarların sürəti artsın. Hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə gedir. Bu, böyük yükləri daşımağa və sərnişinlərə keyfiyyətli xidmət göstərməyə imkan vermir. Ona görə bizim məqsədimiz həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin dəmir yolu hissəsinin modernləşdirilməsidir. Elə etməliyik ki, qatarlar saatda minimum 140 kilometr sürətlə hərəkət edə bilsin. Artıq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının modernləşdirilməsi prosesi başlanmışdır.

Ona görə mən sizi dəvət etmişəm ki, görülmüş işlərlə bağlı məlumat verəsiniz. Bu ilin sonuna qədər hansı işlər görüləcək və ən əsası, gələn il biz hansı işləri görməliyik?

*Ardı 3-cü səh.*

## Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində regionlarda yerləşən yaşayış məntəqələrinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı layihələrin uğurlu icrası nəticəsində mühüm tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yevlax şəhərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına başlanılması məqsədilə **qərara alıram:**

1. Yevlax şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2019-cu il*

# Bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir

Əvvəli 2-ci səh.

Çünki gələn ilin investisiya proqramında dəmir yollarının tikintisi nəzərə alınmalıdır. Məruzə edin.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri **Cavid QURBANOV** dedi:

- Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Əlbəttə ki, bu işlərin əvəzi yoxdur. Ölkəmizdə 15 min kilometrdən çox yol çəkilib, körpülər, aeroportlar tikilib, o cümlədən Azərbaycanın dəmir yollarında bir növ inqilab olub, yenilik edilib. Bunların hamısı Sizin dəstəyiniz və xüsusi qayğınız hesabınadır.

İcazənizlə, əvvəlcə Bakı dairəvi dəmir yolu barədə məlumat verim. Əvvəllər "elektriçka" adı ilə mövcud olmuş bu yol uzun illərdir ki, işləmirdi. Son 25 ildə sadəcə 5-10 elektrik qatarı var idi ki, onlar da 40 ildən çox idi işləyirdi və istismar müddəti çoxdan bitmişdi.

Sizin göstərişinizlə biz bu yolun yenidən tikintisinə başlamışıq. Yan yolları ilə birlikdə bu yolun ümumi uzunluğu 200 kilometrə yaxındır. Uzun illər ərzində yol yatağı sıradan çıxmışdı. Sizin göstərişinizlə bütün yol kəsişmələrini eyni səviyyəlilərdən müxtəlif səviyyəlilərə keçirdik, insanların rahatlığı üçün. Bunu bir növ Abşeron dairəvi dəmir yolu adlandırmaq olar. Çünki bu dəmir yolu Xırdalan şəhəri də daxil olmaqla, bütün Abşeronu birləşdirir. Burada dəmir yolu üzrə işlərin 80 faizi, elektrik, rabitə və işarəvermə işlərinin isə 70 faizi yerinə yetirilib, 11 yeni modern stansiya tikilib. Yol üzərində 18 piyada və 6 avtomobil keçidi inşa olunub. Bütün yolboyu çirkab və tullantı sularını yığışdırmışıq.

Birinci hissə, Abşeron dairəsini - yəni Bakıdan çıxaraq Biləcəri, Xırdalan, Sumqayıt, oradan isə Novxanı, Fatmayi, Məhəmmədi, Zabrat-1, Zabrat-2, Zabrat-3, Sabunçu, Bakıxanov, "Koroğlu" və nəhayət, Bakını birləşdirən yol ilin axırınadək tamamlanır.

**Prezident İlham ƏLİYEV:** İlin axırına tamamlanır, çox yaxşı.

**Cavid QURBANOV:** İndi Bakı-Sumqayıt dəmir yolu ilə hər gün 12 min sərnişin daşınır. Hesab edirik ki, dairə tamamlananda təqribən 25-30 min sərnişin daşımaq imkanımız olacaq.

**Prezident İlham ƏLİYEV:** Bu, daha rahat nəqliyyat növüdür. Eyni zamanda, vətəndaşlar daha da qısa müddət ərzində mənzilbaşına, işbaşına çata biləcəklər. Çünki indi avtomobil yollarında kifayət qədər tıxaclar var. Düzdür, bir çox yollar salınıb, yeni körpülər, yeni yol qovşaqları tikilib, amma yenə də pik saatlarda tıxaclar var. Ona görə bu yol həm insanlara rahatlıq verəcək, həm də avtomobil yolunun yükünü azaldacaq. Ona görə ilin sonuna qədər nəzərdə tutulan bütün layihələr başa çatmalıdır və gələn il də bu işlər davam etdiriləcək.

Bakı-Sumqayıt dəmir yolunun fəaliyyəti, onun əhəmiyyəti haqqında nə deyə bilərsiniz? Ümumiyyətlə, bu yol ilə nə qədər sərnişin daşınır?

**Cavid QURBANOV:** Artıq bu yol ilə hər gün 12 min sərnişin daşınır.

**Prezident İlham ƏLİYEV:** 12 min?

**Cavid QURBANOV:** Bəli,12 min. Amma bu açılandan sonra həm bu tərəfdən Sumqayıta gedən, həm də əks tərəfdən gedən o yollar birləşəndə, avtobusların gediş-gəlişi də tənzimlənəndə gündə təqribən 25-30 min sərnişin daşınacaq. Bu da yəqin ki, ən azı 300-500 avtobusun işini azaldacaq. Həm ekoloji cəhətdən təmizdir, həm çox yüksək səviyyəli və sürətli qatarlardır, içərisində bütün rahatlığı var, həm də vaxt təqribən iki-üç dəfə azalıb.

**Prezident İlham ƏLİYEV:** Bəli, mən getmişəm o yolu, çox rahatdır.

**Cavid QURBANOV:** Sürəti də 140-a artırmaq istəyirik.

**Prezident İlham ƏLİYEV:** Müasir "Stadler" vaqonları da alınıb, onlar da işləyir.

**Cavid QURBANOV:** Bəli, hamısı işləyir.

**Prezident İlham ƏLİYEV:** Bakı-Gəncə dəmir yolu necə işləyir indi? Gəncədə son dəfə olarkən gəncəlilərə söz vermişdim ki, bu yol işləyəcək, artıq bu, fəaliyyətdədir. Bizim planımız var ki, Gəncədən Gürcüstan sərhədinə qədər də həmin o vaqonlar işləsin və sərhəd rayonlarında yaşayan vətəndaşlar da bundan faydalansınlar.

**Cavid QURBANOV:** Hazırda hər gün bir qatar gedir, bir qatar gəlir.

**Prezident İlham ƏLİYEV:** Neçə saata gedir?

**Cavid QURBANOV:** Dörd saata gedir, cənab Prezident. Amma bu, bizi qane etmir. Yolumuzun infrastrukturu imkan verir ki, bu sürəti biz Siz söylədiyiniz kimi, 140-a qaldıraq. Bu da o deməkdir ki, biz 3 saata Gəncə şəhərinə çata bilərik.

**Prezident İlham ƏLİYEV:** Üç saata?

**Cavid QURBANOV:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl.

**Cavid QURBANOV:** Sizin tapşırığınızdan sonra biz yenidən bu məsələ ilə məşğul olmuşuq. Bu gün Gəncə şəhərindən Ağstafa şəhərinə qədər olan yolda işləri tam bitirmişik. Orada 112-yə yaxın yolötürücüsü var idi, onların da 67-sini artıq tamamlamışıq. Fikrimiz odur ki, Ağstafaya gediş-gəliş təqribən dörd saat yarıma olsun. Gəncəyə ən geci üç saat yarıma çatsın. Beləliklə, sərnişinlərin məmnunluğu, rahatlığı Sizin göstərişinizlə tam təmin olunacaq.

**Prezident İlham ƏLİYEV:** Vətəndaşlar indi dəmir yolu ilə getməyi seçəcəklər, çünki həm rahatdır, təhlükəsizdir, həm də məsafə və vaxt baxımından daha da əlverişlidir. Bəs Ləki-Qəbələ yolunun tikintisi nə yerdədir?

**Cavid QURBANOV:** Ləki-Qəbələ yolunun tikintisi davam edir. Bu yolun uzunluğu 46 kilometrdir.

**Prezident İlham ƏLİYEV:** Amma hələlik torpaq işləri aparılır?

**Cavid QURBANOV:** Bəli, torpaq işləri aparırıq, yolun 11 kilometrini artıq qoymuşuq. Süni qurğular 100 ədəddir. Bunun 100-nü də artıq yerləşdirmişik, körpülər, istinad dayaqları və sair. İş davam edir.

**Prezident İlham ƏLİYEV:** Nə vaxt hazır olacaq?

**Cavid QURBANOV:** Bizim hesablamalarımıza görə, gələn ilin ortalarına, təqribən avqust-sentyabr aylarına artıq istifadəyə hazır olacaq.

**Prezident İlham ƏLİYEV:** Çalışın yay mövsümünə qədər istifadəyə verilsin. Çünki yay aylarında o bölgələrə daha çox vətəndaş gedir. Ona görə çalışın yay mövsümünə qədər başa çatdırasınız.

**Cavid QURBANOV:** Baş üstə, cənab Prezident. Bizim dəmir yollarımızın 60 faizi Sovetlər Birliyi dövründə elektrikləşdirilmiş yollardır. Bu həm Zaqatala-Qəbələ tərəfdədir, həm Astara zonasındadır. Sizin tapşırığınızdan sonra biz bu yollar üçün də 2-3 dizel qatarı sifariş etmişik. İki yeni qatarımız da gəlir. Qəbələyə işləyəcək bu qatarları sınaqdan keçirmək üçün Gəncə dəmir yoluna buraxacağıq.

**Prezident İlham ƏLİYEV:** Yaxşı. Bəs Ələt-Astara dəmir yolunda hansı işlər görülür?

**Cavid QURBANOV:** Ələt-Astara yolu ilə bağlı Siz o vaxt göstəriş vermişdiniz ki, Lənkəran şəhərinin gözəlliyini, dənizə yaxınlığını, dənizi qorumaq üçün, ekologiyası üçün həmin yol kənardan aparılsın. Bu gün biz o yolla məşğuluq. Bütün layihələndirmə işləri görülüb. Siz dediyiniz kimi, Astara-Astara yolunun 17 kilometrlik hissəsi artıq tikilib. Həm körpü inşa olunub, həm də o tərəfdə bizim böyük terminal tikilib. Terminal bu gün işləyir. İlin axırınadək orada daha 7-8 yol tikəcəyik. Avtomobil yolları da tikiləndən sonra orada bir dənə avtomobil terminalı tikmək lazım gələcək. Yəqin ki, bizim oradakı ərazimizdə tikiləcək. Dəmir yolu ilə daşımalarda artım var, bu gün maraq çoxdur.

**Prezident İlham ƏLİYEV:** Bəli, biz bu yolu mütləq yenidən qurmalıyıq. Birincisi, mövcud yol artan yükdaşımanı öz üzərinə götürə bilməz. Bu, faktdır və sürət də çox aşağıdır. Yol düz dəniz qırağı ilə gedir, həm təhlükəlidir, həm də ki, vaxt baxımından səmərəli deyil. Digər tərəfdən, Lənkəran indi böyük turizm potensialına malik olan bir rayondur. Son illərdə orada hotellər, istirahət zonaları tikilib. Biz Bakı-Lənkəran avtomobil yolunu yenidən qurmuşuq. Demək olar ki, heç bir şəhərə girməyən və məsafə baxımından təqribən 60-70 kilometr daha qısa yoldur. Ona görə vətəndaşlar tam rahatlıqla gedirlər. Odur ki, o dəmir yolunu sahildən başqa istiqamətə keçirmək, əlbəttə ki, böyük əhəmiyyət daşıyır. Beləliklə, Lənkəranın sahil zonası da turizm üçün açıq olacaq, iş adamları, investorlar gələcək, orada hotellər tikəcək. Çünki orada çox gözəl sahil zonası vardır və biz bundan istifadə etməliyik.

Bir də ki, mənim tapşırığımla indi Bakı-Yalama yolunda işlər gedir. Biz bu yolun da inşasını sürətləndirməliyik, ilk növbədə, Şimal-Cənub nəqliyyat dəhlizi üçün. Həmçinin bizim digər kurort zonası olan Qusar rayonuna da dəmir yolu çəkilməlidir. Hansı ki, sovet vaxtında da heç çəkilməmişdi. İndi mən göstəriş vermişəm ki, bu işlər də öz həllini tapsın. Bu istiqamətdə hansı işləri görmüsünüz?

**Cavid QURBANOV:** Cənab Prezident, Biləcəri-Yalama istiqamətində yolun uzunluğu 348 kilometrdir. Artıq büdcə müəyyənləşib, Dünya Bankı, Fransa İnkişaf Agentliyi tərəfindən. Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi ilə birgə işləmişik. Artıq kredit yekunlaşıb. Biz o yolun tikintisinə yəqin ki, dekabr ayında, yaxud da yanvar ayında başlayacağıq. Bu, yolun bir hissəsi üçündür. Qalan hissəsi Sizin tapşırığınızla büdcədən ayrılıb. Artıq orada 5 yeni yarımstansiya tikilib, çox böyükdür. Elektrik, rabitə xətləri ilə bağlı işləri görmüşük, fiberoptik kabelləri də çəkirik. Tikinti işlərinə gələn il başlasaq, təqribən iki il davam edəcək.

**Prezident İlham ƏLİYEV:** Bəli, o yola da çox böyük diqqət göstərilməlidir. Beləliklə, biz Şimal-Cənub nəqliyyat dəhlizinin səmərəsini böyük dərəcədə artıracağıq.

## *Prezident İlham ƏLİYEV:*
# "Ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir"




"Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 92-ci kitabında yer alan bu fikirləri dövlət başçısı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransdakı nitqində söyləyib.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin yanvar-fevral aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri haqqında informasiyalar, Davosda "Rossiya-1", Çinin CGTN televiziya kanallarına müsahibələrinin mətnləri, "Bir kəmər - bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada sualları cavablandırmasına, İsveçrə Konfederasiyasının prezidenti, beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallar toplanıb. Dövlət başçısı CGTN telekanalına müsahibəsində deyib: "Əlbəttə ki, dünya dəyişir, regionumuz dəyişir, bir çox hadisələr baş verir. Siz onları 5 il əvvəl heç təsəvvür edə bilməzdiniz. Hesab edirəm ki, hər bir lider hadisələri izləməlidir və baş verənlərə hər zaman diqqətli olmalıdır. Biz 1-2 ildən sonra dünyada nələr baş verəcəyini bilmirik. Lakin bugünkü geosiyasi mühitə gəldikdə, fikrimcə, biz həmin mühitdə öz yerimizdə qərarlaşmışıq və bu mövqe bizi qane edir. Beynəlxalq siyasət nöqteyi-nəzərindən əsas məqsədimiz elə bir xarici siyasətdən ibarətdir ki, onun ölkənin daxili vəziyyətinə müsbət təsiri olsun, bütün növ riskləri azaltsın. Zənnimcə, biz buna nail olmuşuq, çünki Azərbaycanda insanlar dinc şəraitdə yaşayır və ölkə sabitdir".

Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Fransa, İran, Almaniya və Rusiyanın, Ümumdünya Gömrük Təşkilatının, Beynəlxalq Astronomiya Federasiyasının yüksəkvəzifəli nümayəndələrini qəbul etməsinə dair informasiyalar verilib. Dövlət başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin "Real" televiziyasına müsahibəsinin, şəhid ailələri ilə görüşü zamanı çıxışının, onlarla söhbətlərinin, Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında nitqinin mətnləri, Beyləqan rayonuna səfərinin materialları və məktublarla tanış ola bilər.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 92-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# 2020-ci ilin dövlət büdcəsi inkişafın real göstəricisi olacaq

Əvvəli 1-ci səh.

"Aktuallığı və möhtəşəmliyi ilə 2020-ci ilin dövlət büdcəsi Azərbaycanın inkişafına, xalqımızın daha da yüksəlməsinə xidmət edəcək". Bunu isə deputat Hüseynbala Mirələmov söylədi. Ölkəmizin hər yerində həyata keçirilən yaşıllaşdırma işlərinə diqqəti yönəldən Hüseynbala Mirələmov dedi ki, yeni ağacların qorunmasına da xüsusi diqqət göstərmək lazımdır. Deputat Lerik rayonunun kəndlərinə qaz və su çəkilişi ilə də bağlı təkliflərini diqqətə çatdırdı.














## Azərbaycanın artan gücünün göstəricisi

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov dedi ki, 2020-ci ilin dövlət büdcəsi Azərbaycanın artan gücünün göstəricisidir. Bu baxımdan növbəti ilin büdcəsini Prezident İlham Əliyevin uğuru kimi dəyərləndirən komitə sədri bütün parametrlər üzrə xərclərin artırılmasını, icbari sığorta üçün vəsait ayrılmasını, cari xərclərin çoxaldılmasını, artan xərclərin əsasən sosial sferaya yönəldilməsini yüksək qiymətləndirdi. Deputat həmçinin gələn il üçün kino çəkilişlərinə ayrılan vəsaitin 5 dəfə artırılmasını mədəniyyətə göstərilən diqqət və qayğı kimi dəyərləndirdi.

"Azərbaycanda avtomobil bazasının dəyişdirilməsinə ehtiyac var". Bunu isə deputat Şahin İsmayılov söylədi. Onun sözlərinə görə, statistik göstəricilərə nəzər salsaq, yol qəzalarının müəyyən bir hissəsi köhnə avtomobillərin payına düşür. Bu baxımdan əhalinin yeni avtomobil almasını asanlaşdırmaq, kredit şərtlərini sadələşdirmək, insanların yeni avtomobillərə əlçatanlığını təmin etmək lazımdır. Deputat onu da bildirdi ki, elektriklə işləyən avtomobilləri bütün növ rüsumlardan azad etmək məqsədəuyğun olar. Artıq dünyada bu sahədə yaxşı təcrübə var.

## Mənfəətli neft və qazdan 149 milyard dollara yaxın vəsait əldə olunub

Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov deputatların qaldırdığı bir sıra məsələlərə münasibət bildirdi. Qeyd etdi ki, indiyədək Dövlət Neft Fondunun hesabına neft-qaz əməliyyatlarından, mənfəətli neftin və qazın satışından 149 milyard dollara yaxın vəsait daxil olub. Bu, dünyada mədən sənayesində ən yüksək göstəricilərdəndir. Xarici şirkətlər tərəfindən dövlət büdcəsinə yüz milyonlarla vergi daxil olur. Azəri-Çıraq-Günəşli yatağından Azərbaycana 50 milyard kubmetrə yaxın təbii qaz təhvil verilib. Bunun dünya bazarlarında qiyməti milyardlarla dollar edir.

Valeh Ələsgərov tələbə yataqxanaları ilə də bağlı təkliflərini verdi. O, bütün dünyada istifadə olunan "Tik, istifadə et, təhvil ver" sxemi üzrə dövlətin vəsatindən istifadə etməməklə tələbələrin yataqxana ilə təmin olunmasının mümkünlüyünü bildirdi. Bunun üçün təmiz, şəffaf qaydalar yaratmaq, torpaq sahələri ayırmaq, texniki standartları müəyyən etmək və bunları biznesmenlərə təqdim etmək lazımdır.

Milli Məclis Sədrinin müavini Şəmkir və Samux rayonlarında Kür çayının şimalında yerləşən kəndlərin qazlaşdırılmasının vacibliyinə də diqqət çəkdi. Qeyd etdi ki, artıq Kürün o tərəfinə qaz xətti çəkilib. Lakin Kürün o tayında olan 8 kənddən 3-nə qaz verilib. Qalan 5 kənd qazsızdır.

Deputatlardan Elçin Quliyev, Hikmət Məmmədov, Rauf Əliyev, Zahid Oruc qanun layihəsi ilə bağlı fikirlərini bildirdilər, təkliflərlə çıxış etdilər.

Milli Məclisin Sədri Oqtay Əsədov müzakirələr zamanı deputatlardan 46 nəfərin çıxış etdiyini, digər deputatlara qanun layihəsinin ikinci oxunuşda söz veriləcəyini bildirdi.

Yekunda "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edildi.

## DSMF-in büdcəsi 16,9 faiz artacaq

Daha sonra iclasda "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarıldı. Məsələ ilə bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verdi. Qeyd etdi ki, gələn il üçün büdcədə sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı üçün 4 mlrd. 825 mln. 508 min 800 manat vəsait nəzərdə tutulmuşdur ki, bu da əvvəlki illə müqayisədə 697 milyon manat çoxdur. Təkcə onu demək kifayətdir ki, bu büdcənin tərkibində transfertin həcmi 2012-ci ildə mövcud olan 42 faizdən gələn il üçün 29 faizə enərək 1 mlrd. 427 mln. manat təşkil edəcək. Bu büdcənin artan böyük məbləği məhz DSMF-in öz imkanları hesabına toplanacaq.

Hadi Rəcəblinin sözlərinə görə, sevindirici hal odur ki, Prezidentin apardığı struktur islahatların səmərəsi nəticəsində qeyri-leqal məşğulluğun bu il təxminən 160 min nəfərinin sığortaya cəlb olunması büdcənin artımında özünü kəskin surətdə göstərə bildi. Ehtimal var ki, bu artımlar gələn ildə çoxalacaq və DSMF əlavə vəsaitlərin toplanmasında mühüm rol oynayacaqdır. Rəqəmlər bir daha onu deməyə əsas verir ki, gələn il pensiyaların və əmək haqlarının artım tempi yerində saymayacaq və davamlı surətdə çoxalacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev çıxış edərək bildirdi ki, Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq əhalinin sosial müdafiəsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Cari ildə dövlət başçısının fərmanları ilə iki sosial paket reallaşdırılmış, bu tədbirlər 4,2 milyon nəfər vətəndaşı əhatə etmiş, islahatların 2019-cu il üçün maliyyə tələbatı 2,3 milyard manat təşkil etmişdir. Cari ildə minimum əməkhaqları 93 faiz, minimum pensiya 72 faiz, sosial müavinətlər və təqaüdlər orta hesabla 100 faiz, məcburi köçkünlərin aylıq müavinətləri 50 faiz, təhsil alan tələbələrin təqaüdləri 20 faiz artırılmış, iki yeni Prezident təqaüdü təsis edilmiş, fiziki şəxslərin problemli kreditləri ilə bağlı müvafiq qərar qəbul edilmişdir. Bu artımlardan sonra Azərbaycanda minimum əməkhaqqı və minimum pensiyanın məbləği MDB ölkələri arasında alıcılıq qabiliyyəti indeksinə görə birinci yerdə, orta aylıq pensiyanın məbləği isə üçüncü yerdə qərarlaşıb.

## Orta hesabla 85 min ailə ünvanlı sosial yardım alacaq

Cari ildə şəhid ailələrinə 11 min manat birdəfəlik ödəmələrin verilməsi davam etdirilib. 11 min 740 şəhidin 17 min 479 vərəsəsinə birdəfəlik ödəmə verilib. Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və bu kateqoriyadan olan digər şəxslər üçün mənzil və avtomobil təminatı proqramları da genişləndirilmiş, bu ilin sonuna qədər 934 mənzilin və 600 avtomobilin verilməsi təmin ediləcək. Bu proqramların icrası 2020-ci ildə davam etdiriləcək.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi məqsədi ilə cari ildə uşaqlar üçün 70 günərzi qayğı mərkəzi, 49 icma əsaslı sosial reabilitasiya mərkəzi, 12 autizm və daun sindromlu uşaq üçün psixoloji yardım mərkəzi, 2 eşitmə və nitq qabiliyyəti zəif olan sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzi, 2 görmə imkanları məhdud uşaqlar üçün sosial reabilitasiya mərkəzi, 10 ahıllar üçün günərzi qayğı mərkəzi, 3 insan alveri qurbanlarının reabilitasiya mərkəzləri yaradılmışdır.

İclasda bildirildi ki, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi "Büdcə sistemi haqqında" və digər qanunlara uyğun hazırlanmış, bu zaman növbəti il üçün ölkənin iqtisadi və sosial inkişaf proqnozu əsas götürülmüşdür. Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun 2020-ci il üçün tərtib olunmuş büdcələrində gəlir və xərcləri əhəmiyyətli dərəcədə artmışdır. 2020-ci ildə DSMF-in gəlir və xərcləri 2019-cu ilə nisbətən 16,9 faiz çox proqnozlaşdırılır. Qeyri-büdcə təşkilatları üzrə 2020-ci il üçün daxilolmalar 1 milyard 985 milyon manat proqnozlaşdırılır. Bu, 2019-cu ilə nisbətən 310 milyon manat və ya 18,5 faiz çoxdur. 2020-ci ildə ünvanlı dövlət sosial yardım proqramına ayrılan vəsaitin həcmi də 50 milyon manat artırılacaq. Gələn il ümumilikdə orta hesabla 85 min ailənin ünvanlı sosial yardımla əhatə olunması proqnozlaşdırılır.

## İşsizlikdən sığorta fondunun gəlir və xərcləri artacaq

Daha sonra "İşsizlikdən sığorta fondunun 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə də (birinci oxunuş) məlumat verildi. Əhalinin məşğulluğu ilə bağlı tədbirləri daha da gücləndirmək məqsədi ilə 2020-ci il üçün İşsizlikdən sığorta fondunun gəlirləri və xərcləri 128,2 milyon manat proqnozlaşdırılır. Bu da 2019-cu ilin gözlənilən nəticəsinə nisbətən 29,8 milyon manat və ya 30,2 faiz çoxdur.

Müzakirələr zamanı Qüdrət Həsənquliyev, Fazil Mustafa, Fəzail Ağamalı, Jalə Əliyeva qanun layihəsi ilə bağlı təkliflərini bildirdilər.

Fasilədən sonra müzakirələr davam etdirildi.

Çıxış edən Əli Məsimli, Qənirə Paşayeva, Elmira Axundova, Sədaqət Vəliyeva və Cavid Osmanov sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının və İşsizlikdən sığorta fondunun gələn il üçün büdcələrinin məqbul olduğunu qeyd etdilər. Deputatlar bir sıra sosial məsələlərlə bağlı təkliflərini də irəli sürdülər. Yekunda Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deputatların qaldırdığı məsələlərə münasibət bildirdi.

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihələri birinci oxunuşda qəbul edildi.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi barədə (birinci oxunuş) məlumat verdi. Qeyd etdi ki, gələn il yaşayış minimumu ölkə üzrə 190 manat, əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat məbləğində nəzərdə tutulur. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) məlumat verdi. Bildirdi ki, 2020-ci il üçün ehtiyac meyarının həddi 160 manat məbləğində nəzərdə tutulur. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hadi Rəcəblinin təqdimatından sonra "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələri birinci oxunuşda qəbul edildi.

Büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi bu gün davam edəcək.

*Rəşad CƏFƏRLİ,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*

# Milli Məclisin Sədri Rusiya Federasiya Şurasının sədr müavini ilə görüşüb

Noyabrın 13-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini İlyas Umaxanovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Dağıstan Respublikası Xalq Məclisinin Sədri Xızrı Şıxsəidov və digər rəsmi şəxslər də iştirak ediblər. Sədr qonaqları səmimi salamlayaraq qeyd edib ki, müstəqil Azərbaycan Respublikası Rusiya Federasiyası, onun subyektləri, o cümlədən Dağıstanla hərtərəfli əlaqələrin inkişafına böyük önəm verir. Xalqlarımız arasındakı mədəni və mənəvi yaxınlıq münasibətlərimizin daha da inkişafı üçün yaxşı zəmin yaradır. Bildirilib ki, ölkə başçılarının görüşlərində aparılan danışıqlar və imzalanmış sənədlər əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə qalxması baxımından çox əhəmiyyətlidir. Yüksək səviyyəli siyasi dialoq iqtisadi əlaqələrimizə də öz müsbət təsirini göstərir. Parlamentlər səviyyəsində münasibətlərimizin inkişafı ümumi məqsədlərə xidmət edir.

Milli Məclisin Sədri Rusiya tərəfdən Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrup üzvləri arasında Dağıstandan olan deputatların fəaliyyətini təqdirəlayiq hesab edib. Qeyd edilib ki, deputatlarımızın qarşılıqlı səfərləri onları düşündürən məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Görüşdə bildirilib ki, dini liderlərin növbəti sammitində iştirak etmək üçün ölkəmizə səfər etmiş Rusiya nümayəndə heyəti Milli Məclisdə olmaqdan çox məmnundur. Qonaqlar qeyd ediblər ki, müştərək tarixi keçmişə malik xalqlarımız arasında münasibətlərin dərinləşməsi günün tələbidir. Rusiya, o cümlədən Dağıstan Azərbaycanla iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələri daha da genişləndirməyə böyük əhəmiyyət verir.

Söhbət zamanı parlamentlərarası əlaqələrin gələcək inkişaf perspektivləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində dağıstanlı deputatlarla görüş keçirilib

Noyabrın 13-də Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisi Sədrinin müavini Kamil Davdiyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qonaqları salamlayaraq bildirib ki, Azərbaycan və Dağıstan xalqları ortaq dəyərləri bölüşən, bir-birinə çox yaxın mədəniyyətə, adət-ənənələrə malik qardaş xalqlardır. Azərbaycanda da, Dağıstanda da gedən müsbət dəyişikliklər, inkişaf tendensiyası təqdirəlayiqdir.

Komitə sədri qonaqlara Azərbaycanın büdcəsi, iqtisadi sahədə aparılan islahatlar, sahibkarlar, investorlar və kənd təsərrüfatının inkişafı üçün yaradılmış imkanlar, ölkəmizin keçdiyi tərəqqi yolu barədə ətraflı məlumat verib.

Səmimi sözlərə görə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Dağıstan Xalq Məclisi Sədrinin müavini Kamil Davdiyev öz növbəsində Dağıstanın büdcəsi, iqtisadi inkişafı, kənd təsərrüfatı haqqında danışıb. Qonaq diqqətə çatdırıb ki, Dağıstan və Azərbaycan xalqları tarixən bir-birinə bağlı, ayrılmaz xalqlardır. Parlamentlərimiz arasında imzalanmış sənədlər bu münasibətlərin daha da inkişaf edəcəyinə əminlik yaradır.

Söhbət zamanı iqtisadiyyat, kənd təsərrüfatı sahələrində təcrübə mübadiləsi, parlamentlərarası əlaqələrin inkişafı və digər mövzularda müzakirələr aparılıb.

Görüşdə Milli Məclisin deputatları Rüfət Quliyev, Aydın Hüseynov və İlham Əliyev iştirak ediblər.

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Mərkəzi Seçki Komissiyası Gəncədə regional seminar-müşavirə keçirib

Qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli mövzusunda növbəti seminar-müşavirə noyabrın 13-də Gəncədə keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirin keçirilməsində əsas məqsəd seçki mübahisələrinin həlli ilə bağlı dairə seçki komissiyalarının məlumatının artırılması və bu istiqamətdə atılan addımların səmərəliliyinin daha da yüksəldilməsidir.

Seminar-müşavirədə MSK katibi Mikayıl Rəhimov, Ali Məhkəmənin hakimi Rahib Nəbizadə, MSK üzvü Fuad Cavadov, Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov çıxış ediblər.

Sonra MSK, Ali Məhkəmə və Gəncə Apelyasiya Məhkəməsinin təmsilçiləri tərəfindən "Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası", "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" və "Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" mövzularında təqdimatlar keçirilib və məruzələr dinlənilib.

Region üzrə 26 seçki dairəsi - 37 saylı Nizami I (Gəncə), 38 saylı Nizami II (Gəncə), 39 saylı Kəpəz I (Gəncə), 40 saylı Kəpəz II (Gəncə), 48 saylı Yevlax, 82 saylı Ağcabədi, 83 saylı Ağcabədi-Füzuli, 91 saylı Ucar, 92 saylı Zərdab-Ucar, 93 saylı Bərdə şəhər, 94 saylı Bərdə kənd, 95 saylı Tərtər, 96 saylı Goranboy-Naftalan, 97 saylı Goranboy-Ağdam-Tərtər, 98 saylı Şəmkir şəhər, 99 saylı Şəmkir kənd, 100 saylı Şəmkir-Daşkəsən, 101 saylı Göygöl-Daşkəsən, 102 saylı Samux-Şəmkir, 103 saylı Gədəbəy, 104 saylı Gədəbəy-Tovuz, 105 saylı Tovuz, 106 saylı Tovuz-Qazax-Ağstafa, 107 saylı Qazax, 108 saylı Ağstafa və 119 saylı Ağdam kənd seçki dairələri dairə seçki komissiyalarının sədrlərinin qatıldığı tədbirin yekununda seçki mübahisələrinin həlli ilə bağlı müxtəlif mövzular ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

Qeyd edək ki, seçki mübahisələrinin həllinə həsr olunan layihə çərçivəsində növbəti seminar-müşavirələr noyabrın 14-də Şəkidə, 15-də Şirvanda və 18-də Naxçıvan Muxtar Respublikasında keçiriləcək.

# Mərkəzi Seçki Komissiyası "Müşahidəçilər üçün yaddaş" kitabçası hazırlayıb

Mərkəzi Seçki Komissiyası 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Müşahidəçilər üçün yaddaş" kitabçası hazırlayıb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihənin həyata keçirilməsində əsas məqsəd bələdiyyə seçkilərini izləyəcək müşahidəçiləri məlumatlandırmaq və onlara metodiki kömək göstərməkdir. Nəşrdə müşahidə aparılmasının prinsipləri, eyni zamanda müşahidəçilərin hüquq və vəzifələri ətraflı şəkildə izah edilib.

Yaddaş kitabçası Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli aktlar əsasında tərtib olunub.

"Müşahidəçilər üçün yaddaş"ı aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək mümkündür.




# Hərbi Hava Qüvvələri əməliyyat təlimi çərçivəsində qarşıya qoyulan tapşırıqları icra edir







Hərbi Hava Qüvvələri (HHQ) Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimi çərçivəsində qarşıya qoyulan tapşırıqları icra edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq HHQ-nin idarəetmə qrupuna müdaxilələr əsasında daxil olan məlumatlar xəritə üzərinə işlənilir. Təlimə cəlb olunan aviasiya və hava hücumundan müdafiə vasitələri tapşırıqları dəqiq və effektiv icra edirlər.

# Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Sergey Lavrovun fikirləri ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun fikirləri ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

"Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq bəyan edirik ki, Sergey Lavrov kimi təcrübəli bir diplomatın bu cür ifadələr səsləndirməsi ciddi təəssüf və təəccüb doğurur.

Keçən ay Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edən Prezident İlham Əliyev bu məsələyə aydınlıq gətirərək bildirmişdi ki, "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Dağlıq Qarabağın Azərbaycan əhalisi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində işğal olunmuş digər 7 rayonun əhalisi kimi etnik təmizləməyə məruz qalmışdır.

Münaqişənin həllinə məsul olan ATƏT-in Minsk prosesi çərçivəsində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları maraqlı tərəflər kimi müəyyən olunmuşdur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mühüm beynəlxalq təşkilatların sənədlərində də heç vaxt "Dağlıq Qarabağ xalqı" məfhumu qeyd edilməyib.

Xatırlatmaq istərdik ki, 2019-cu ildə Rusiyanın da təmsil olunduğu ATƏT-in Minsk qrupunun həmsədrləri iki dəfə regiona səfər edib və hər iki səfərin yekun birgə bəyanatlarında Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları ilə görüşdüklərini ayrıca qeyd ediblər.

Sergey Lavrovun brifinqdə səsləndirdiyi fikirlər həm də ona görə təəssüf hissi doğurur ki, o, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətraf 7 rayondan 1 milyondan çox köçkün düşmüş azərbaycanlının öz torpaqlarına geri qayıtmaq hüququnu brifinqdə vurğulamır.

Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə o, Azərbaycanın bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktının tələbidir.

Rusiya Xarici İşlər naziri Sergey Lavrov özü də beynəlxalq tədbirlərdə çıxışı zamanı BMT Nizamnaməsinə riayət edilməsi və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb edir və buna görə digər dövlətləri tənqid edir.

Biz, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, bir daha bəyan edirik ki, icmamızın 80 mindən çox azərbaycanlı üzvü öz yurduna geri qayıdacaqları günü gözləyir. Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vasitəçilik missiyası həyata keçirən həmsədr dövlətlərdən və nüfuzlu beynəlxalq təşkilatlardan ədalətli mövqe gözləyirik. Yalnız bundan sonra Dağlıq Qarabağda sülh bərqərar ola və keçmişdə olduğu kimi, azərbaycanlılarla ermənilər sülh şəraitində Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində yaşaya bilərlər".

# Birləşmiş Ərəb Əmirlikləri indiyədək Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollar sərmayə yatırıb

## Bakıda Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib

Bu vaxtadək Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) tərəfindən Azərbaycan iqtisadiyyatına 2,2 milyard ABŞ dolları, Azərbaycandan isə BƏƏ-yə 350 milyon dollardan çox sərmayə yatırılıb.



AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri, Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Mikayıl Cabbarov noyabrın 13-də Bakıda BƏƏ-nin İqtisadiyyat naziri, komissiyanın həmsədri Sultan bin Səid Əl-Mansuri ilə görüşdə deyib.

Nazir M.Cabbarov Azərbaycan-BƏƏ siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu, münasibətlərin qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını, hər iki ölkənin dövlət başçılarının siyasi iradəsinin əməkdaşlığın inkişafında mühüm rolunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və BƏƏ beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirlər.

İqtisadiyyat naziri qeyd edib ki, ölkələrimiz arasında zəruri müqavilə-hüquqi baza yaradılıb, müxtəlif sahələrdə 30-dan çox sənəd imzalanıb. İkitərəfli əlaqələrdə investisiya əməkdaşlığının önəmini vurğulayan M.Cabbarov BƏƏ tərəfindən Azərbaycan iqtisadiyyatına 2,2 milyard ABŞ dolları, Azərbaycandan isə BƏƏ-yə 350 milyon ABŞ dollarından çox sərmayə yatırıldığını diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, nəqliyyat, xidmət və s. sahələrdə 340-dan çox BƏƏ şirkəti qeydiyyata alınıb. 2018-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 38 faiz artıb. Artım tendensiyası bu ilin 9 ayında da davam edib və 22,5 faizlik artım müşahidə olunub.

Nazir Azərbaycanın BƏƏ-də ticarət nümayəndəsinin və Ticarət Evinin fəaliyyətinin iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib, qarşılıqlı ticarət həcminin daha da artırılmasının və strukturunun şaxələndirilməsinin önəmini vurğulayıb, bu sahədə əməkdaşlığın inkişafı üçün böyük potensialı diqqətə çatdırıb.

Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid Əl-Mansuri ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində keçirilən görüşlərin rolunu vurğulayıb.

Görüşdə iki ölkə arasında enerji, sənaye, nəqliyyat-tranzit, kənd təsərrüfatı, qida təhlükəsizliyi, İKT, ticarət, investisiya, maliyyə, gömrük, kiçik və orta biznes, turizm, humanitar və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə müzakirələr aparılıb.

Həmin gün Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.

Azərbaycanın İqtisadiyyat naziri, Hökumətlərarası Komissiyanın həmsədri Mikayıl Cabbarov ikitərəfli iqtisadi əməkdaşlığın inkişafı istiqamətində keçirilən işgüzar görüşlərin, sərgilərin, yarmarkaların əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, indiyədək Dubay, Əbu-Dabi və Şarca şəhərlərinə ixrac missiyaları təşkil olunub, Dubayda hər il ənənəvi olaraq keçirilən "Global Village" sərgisində Azərbaycan pavilyonu açılıb. Azərbaycan şirkətlərinin "Dubay EXPO-2020" sərgisində də iştirakı nəzərdə tutulur.

Azərbaycanda aparılan islahatlar barədə məlumat verən M.Cabbarov qeyd edib ki, iqtisadi islahatların, sistemli tədbirlərin uğurlu nəticələri beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business 2020" hesabatında 190 ölkə arasında 34-cü yerdə qərarlaşan Azərbaycan 20 ən islahatçı ölkə sırasında yer alıb, Dünya İqtisadi Forumunun 2019-cu il üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda isə Azərbaycan 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci olub.

Komissiyanın iclasında İqtisadiyyat naziri həmçinin ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə tədbir iştirakçılarına məlumat verib, BƏƏ investorlarını tətbiq olunan investisiya təşviqi mexanizmlərindən faydalanmağa, sənaye zonalarına və aqroparklara investisiya yatırmağa, birgə layihələrin icrasına dəvət edib. M.Cabbarov Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyini vurğulayaraq, ölkələrimiz arasında nəqliyyat-tranzit sahəsində əməkdaşlığın böyük potensialını qeyd edib.

Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid Əl-Mansuri Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək ölkəmizin böyük inkişafa nail olduğunu vurğulayıb. Komissiyanın həmsədri BƏƏ iqtisadiyyatı barədə məlumat verib, ölkələrimiz arasında bir çox sahələrdə uğurlu əməkdaşlığı qeyd edib, tərəfdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Tədbirdə tərəflər iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətlərini müzakirə ediblər.

İclasın sonunda Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi Hökumətlərarası Komissiyanın həmsədrləri - İqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid Əl-Mansuri imzalayıblar. Sənəddə ticarət, sərmayə, sənaye, energetika, kənd təsərrüfatı, qida təhlükəsizliyi, ətraf mühit, nəqliyyat, rabitə və yüksək texnologiyalar, innovasiya və rəqəmsallaşdırma, turizm, mədəniyyət, təhsil və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

# Xalqa xidmət missiyası

*Əvvəli 1-ci səh.*

Ona görə gənclərə vətənpərvərlik hissləri aşılamaq hər birimizin borcudur ki, onlar gələcəkdə vətənə bağlı olsunlar və hər hansı bir xarici təsirdən azad olsunlar".

Struktur islahatları ilə bağlı cənab İlham Əliyevin müəyyənləşdirdiyi strateji kurs ondan ibarətdir ki, icra strukturları çevik, mobil, yeni çağırışlara dərhal reaksiya verən olmalı, eyni zamanda az resurslardan istifadə etməklə şəffaf fəaliyyəti təmin etməlidirlər. Dövlət başçısı vəzifəyə yeni təyin etdiyi icra hakimiyyəti başçıları ilə görüşdə səsləndirdiyi fikirlərlə ilk növbədə onlara öz gündəlik fəaliyyətini nümunə göstərir. Cənab İlham Əliyev nümunəsi göz önündədir. Hər zaman vədəndaşın yanında olmaq, xalqın sevimlisinə çevrilmək, problemini dinləyib onların həlli ilə bağlı dərhal tapşırıqlar vermək... Bu, xalqa xidmət missiyasıdır.

Yeni təyin olunan icra başçılarına tapşırıqlarını çatdırarkən Prezident həmçinin bu məsələyə toxundu və vurğuladı ki, icra başçıları ilk növbədə xalqa ləyaqətlə xidmət etməlidirlər. Çünki xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur: "Dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm - xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir".

Dövlət başçısı yeni icra hakimiyyəti başçılarını qəbul edən zaman məmurların diqqətinə çatdırdı ki, qarşılarında duran əsas vəzifə rəhbərlik edəcəkləri rayonların sosial-iqtisadi inkişafına nail olmaqdır. Eyni zamanda, yeni kadrlar daim vətəndaşlarla ünsiyyət əsnasında rayonun problemlərini və insanları narahat edən məsələləri daha dərindən öyrənib adekvat tədbirlər görməlidirlər. Əks təqdirdə ciddi şəkildə cəzalandırılacaqlar: "Mən sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə var. Amma əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır. Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməlisiniz, tamamilə şəffaf vəziyyət yaradılmalıdır".

Prezident həmçinin yerlərdən gələn hər bir siqnala obyektiv baxılacağını, icra başçılarının fəaliyyətinə doğru qiymət veriləcəyini də bəyan etdi. Yəni onların fəaliyyətləri daim Prezidentin diqqətində olacaq.

Göründüyü kimi, ölkədə kadr islahatlarının yeni dövrü başlayıb. Bütün bunlar, yəni Prezidentin sosial-iqtisadi və siyasi islahatlarının uğurları onu deməyə əsas verir ki, bugünkü sabitliyin, müstəqil həyatın əsas təminatçısı olan xalq-iqtidar birliyi getdikcə daha da möhkəmlənir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda Beynəlxalq Paralimpiya Komitəsinin 30 illiyi münasibətilə “Yenilməzlər” adlı beynəlxalq qala tədbir keçirilib







Beynəlxalq Paralimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə noyabrın 13-də Bakıda, Gənc Tamaşaçılar Teatrında “Yenilməzlər” adlı beynəlxalq qala tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Beynəlxalq Paralimpiya Komitəsinin təmsilçiləri, ölkəmizin idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Heydər Əliyev Fondunun və Azərbaycan Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə keçirilən və özünəməxsusluğu ilə seçilən tədbirdə fiziki məhdudiyyətli insanların həyat hekayələri kölgə teatrı, ultrabənövşəyi şou və pantomima tamaşaları vasitəsilə təqdim olunub.

İştirakçılar əvvəlcə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) fotomüxbiri İlqar Cəfərovun paralimpiyaçılarımızın uğurlarından bəhs edən fotolarından ibarət stendə baxıblar.

Tədbirdə “Yenilməzlər”in loqosu təqdim olunub. İlk baxışdan sadə görünən loqo özündə paralimpiya ruhunu əks etdirir. Loqonun mərkəzində yüksələn məşəl qalibiyyəti və qələbə ruhunu təcəssüm etdirir. Alovun dilləri Azərbaycan bayrağının rənglərinə boyanıb. Aşağı hissədə isə Beynəlxalq Paralimpiya Komitəsinin “Hərəkətdə olan ruh” simvolu yer alıb. Loqoda uğuru və dinamik həyatı özündə əks etdirən ürək formasında həyat rəmzi də yer alıb.

Tədbirdə fiziki məhdudiyyətlərə baxmayaraq uğur qazanan tanınmış şəxslər həyat hekayələrini tamaşaçılarla bölüşüblər.

“Yenilməzlər”in ilk qonaqları fiziki məhdudiyyətlər qarşısında yenilməyən, çətinlikləri aşaraq həm idmanda, həm də ictimai həyatda böyük uğurlar qazanaraq dünya səviyyəsində çox nüfuzlu insanlara çevrilməyi bacaran Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının fəxri cəngavər-bakalavrı, Beynəlxalq Paralimpiya Komitəsinin ikinci prezidenti Ser Filip Kreyven və Böyük Britaniya Paralimpiya Assosiasiyasının fəxri vitse-prezidenti Entoni Seynsburi olub.

Ser Filip Kreyven 16 yaşında olarkən dağa dırmanma zamanı baş verən bədbəxt hadisə nəticəsində onun onurğa sütunu zədələnib. Həmin vaxtdan bəri o, əlil arabasından istifadə etməyə məcbur olub. Lakin keçirdiyi qəza və ondan sonra yaranan fiziki məhdudiyyət Filipin iradəsini sındıra bilməyib. O, idmandan nəinki uzaqlaşmayıb, əksinə, bütün dünyada əlil idmanının və paralimpiya hərəkatının inkişafına mühüm töhfələr verib. O məmnunluqla qeyd edib ki, Azərbaycanda paralimpiya hərəkatının inkişafına dövlət tərəfindən böyük diqqət göstərilir. Məhz bunun nəticəsidir ki, azərbaycanlı paralimpiyaçılar beynəlxalq arenada uğurla çıxış edirlər. İdmançılar əldə etdikləri nailiyyətlərlə paralimpiya hərəkatının inkişafına da mühüm töhfələr verirlər.

Eyni sözləri onun tərəf müqabili və Azərbaycan idmanının dostu Entoni Seynsburi haqqında da demək olar. Azərbaycan Milli Paralimpiya Komitəsinin beynəlxalq əlaqələrinin qurulmasında və təbliğində onun xüsusi xidmətləri var. Mütəxəssis hazırda bu missiyanı davam etdirir. O, Azərbaycan Respublikasının Milli Paralimpiya Komitəsinin yaradılmasının 20 illik yubileyi münasibətilə dövlət başçısının 2016-cı il fevralın 2-də imzaladığı sərəncama əsasən, ölkəmizdə paralimpiya hərəkatının inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif edilib.

Entoni Seynsburi dünyada paralimpiya hərəkatının geniş vüsət aldığını, əlil insanların idman vasitəsilə cəmiyyətə inteqrasiyasının vacibliyini qeyd edib.

Tədbirin digər maraqlı qonağı isə BMT-nin Pakistanda qadınlar üzrə xoşməramlı səfiri xanım Muniba Mazari olub. Pakistanın “dəmir ledisi” kimi tanınan Muniba keçirdiyi qəza nəticəsində əlil arabasından istifadə etməyə məcbur olub. Fiziki məhdudiyyətlərini və digər stiqmaları dəf edən Muniba Mazari dünyanın nüfuzlu qadınlarından birinə çevrilib. O, BBC tərəfindən dünyanın 100 güclü qadını, “Forbes” jurnalı tərəfindən isə dünyada 30 yaşından cavan olan 30 nüfuzlu şəxs siyahısında yer alıb.

Muniba Mazari fiziki imkanları məhdud şəxsləri, xüsusilə də qadınları daha güclü olmağa çağırıb. Bildirib ki, əlilliyi olan insanlar cəmiyyətdən təcrid edilməməlidirlər. Onlar özlərinə inanmalı, sahib olduqlarını və əldə etdiklərini digərlərinə ötürməlidirlər.

Adı hər bir Azərbaycan vətəndaşına yaxından tanış olan ikiqat paralimpiya çempionumuz İlham Zəkiyev də tədbirdə yer alan əsas qonaqlardan biri olub. Onun hərbi xidmət zamanı düşmən gülləsinə tuş gəlməsi nəticəsində görmə qabiliyyətini itirməsinə baxmayaraq həyatda böyük uğurlara nail olması bədii şəkildə səhnələşdirilib. İlham Zəkiyev özü ilə bağlı səhnələşdirilən tamaşada yer alıb.

Dünya cüdosunun tanınmış simalarından olan paralimpiya çempionu Oleq Kretsul da İlham Zəkiyev ilə eyni səhnəni bölüşüb. Oleq Kretsulun bu tədbirdə yer alması təsadüfi deyil. Keçirdiyi avtomobil qəzasından sonra görmə qabiliyyətini itirən Oleq Kretsulun idman karyerası da iki hissəyə ayrılır. 1997-ci ildə keçirdiyi qəzaya qədər cüdo ilə məşğul olan Oleq beynəlxalq arenada çox ciddi uğurlara imza atıb. Qəza və görmə qabiliyyətinin itməsi onu məğlub edə bilməyib və Oleq Kretsul bu dəfə paracüdo idmanında uğurlar qazanıb və paralimpiya çempionluğuna qədər yüksələ bilib.

Tədbirdə ölkəmizdə jestika ilə ilk “vine” çəkən Mahmud Səfərov “Mahmudun dünyası” tamaşasını təqdim edib. Onun çıxışı fiziki məhdudiyyətinə baxmayaraq uğur qazanan insanlara həsr olunub.

BP-nin Azərbaycanda əlaqələr üzrə meneceri Tamam Bayatlı şirkətin fəaliyyət göstərdiyi ölkələrdə korporativ sosial məsuliyyət dəyərlərinə böyük önəm verdiyini vurğulayıb. Bildirib ki, BP Azərbaycan Milli Olimpiya Komitəsi və Milli Paralimpiya Komitəsinin tərəfdaşıdır.

Azərbaycan Milli Paralimpiya Komitəsinin baş katibi Kamal Məmmədov çıxış edərək deyib: “Xoşbəxtlik əllərdə və ayaqlarda deyil. Əsas odur ki, insanın həyat sevgisi tükənməsin. Çünki məhz sevgi insanları həyata bağlayan və ona uğur qazandıran məfhumdur”.

Tədbirin sonunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və digər iştirakçılar üzərində “Yenilməzlər”in loqosunun həkk olunduğu tablonu xüsusi zərlərlə rəngləyiblər.

# Cocuq Mərcanlıda «Qarabağ Azərbaycandır!» lövhəsi açılıb






Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunda çıxışı zamanı Paşinyana cavab olaraq səsləndirdiyi “Qarabağ Azərbaycandır!” cümləsinin həkk olunduğu lövhə hazırlayıb.

Aİİ heyəti həmin lövhəni 9 noyabr 2019-cu il tarixdə Dövlət Bayrağı Günü münasibətilə Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər zamanı Şuşa şəhərindəki Gövhər Ağa məscidinin bənzəri olan kənd məscidinin önündə açıblar.

Qeyd edək ki, Aİİ kollektivi Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfəri zamanı “Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə-kompleksi”ni, kənd məktəbini də ziyarət ediblər. Eyni zamanda, Cocuq Mərcanlı Mədəniyyət evində milli-vətənpərvərlik mövzusuna həsr edilmiş tədbir keçirilib.

İnstitutun rektoru Ceyhun Məmmədov xalqımızın istiqlal mübarizəsinin və dövlətçiliyimizin rəmzi olan Azərbaycan bayrağına həsr olunan bayram günü ilə bağlı iştirakçıları təbrik edərək bildirib ki, hər bir ölkənin bütövlük, müstəqillik, yenilməzlik, ucalıq rəmzi olan bayraq onun dövlət atributudur. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mübarizəsinin, təfəkkür və düşüncə tərzinin ən bariz ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığı, istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini, ölkənin suverenliyini və yüksəlişini tərənnüm edən üçrəngli dövlət bayrağımız hər bir vətənpərvər azərbaycanlının qürur mənbəyidir.

## Azərbaycan xalqı ermənilərin Dağlıq Qarabağda dağıtdığı dini abidələri ürəyində yaşadır

C.Məmmədov diqqətə çatdırıb ki, hər bir Azərbaycan vətəndaşı bayrağımızın ən uca zirvələrdə dalğalanmasına öz töhfəsini verməlidir. Rektor Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Bildirib ki, bu siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünya birliyində öz layiqli yerini tutmasını təmin edib.

Aİİ rektoru qeyd edib ki, düşmənin xarabalığa çevirdiyi Cocuq Mərcanlı Prezident İlham Əliyevin sərəncamlarına əsasən qısa vaxtda yenidən qurulub, bütün infrastruktura malik abad qəsəbəyə çevrilib.

Azərbaycan xalqı ermənilərin Dağlıq Qarabağda dağıtdığı dini abidələri ürəyində yaşadır. Gənclərə xitabən “Bayraq tariximiz, keçmişimiz, bugünümüz, müqəddəs dövlət rəmzimizdir” deyə səslənən rektor Azərbaycan xalqının zaman-zaman öz azadlığı və müstəqilliyi uğrunda fədakar mübarizə apardığını, canı, qanı hesabına müstəqil dövlət qurduğunu, öz üçrəngli bayrağını ucaltdığını söyləyib. Rektor vurğulayıb ki, hazırda bu bayrağın ətrafında birləşmişik. Millətimizin, dövlətimizin şərəf və ləyaqətinin, sarsılmaz və yenilməzliyinin rəmzi olan bayrağımız gənclərimizə əmanətdir.

## Prezidentin Cocuq Mərcanlıda yürütdüyü uğurlu siyasət

Daha sonra C.Məmmədov rəhbərlik etdiyi institut haqqında ümumi məlumat verərək, təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli sərəncamı ilə yaradıldığını qeyd edib. C.Məmmədov bildirib ki, institut keyfiyyətli tədrislə yanaşı, tələbələrin dünyagörüşünün formalaşdırılmasına, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsinə, vətənpərvərlik hisslərinin gücləndirilməsinə də xüsusi önəm verir. Cocuq Mərcanlıya səfərin əsas məqsədinin tələbələrdə vətənpərvərlik ruhunun gücləndirilməsinə töhfə vermək olduğunu qeyd edən Aİİ rektoru gənc nəslin milli ruhda yetişməsi, milli təəssübkeşliyin, torpağa bağlılığın, dövlətə sevginin gücləndirilməsi üçün institutda maarifləndirici tədbirlər silsiləsinin davam etdiriləcəyini nəzərə çatdırıb.

Səfər zamanı institut heyəti, həmçinin Cocuq Mərcanlı kəndində inşa edilmiş Şuşa şəhərindəki Gövhər Ağa məscidinin bənzəri olan kənd məscidi ilə tanış olub, axund Elman Piriyev ilə söhbət aparıblar. Bildirilib ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadət ocağında dindarlar üçün hər cür şərait yaradılıb.

Məscidi ziyarətdən sonra institut heyəti ərazini gəzib, Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndi ilə bağlı yürütdüyü siyasətin nəticəsi olaraq, burada aparılan abadlıq, tikinti-quruculuq işlərinin şahidi olub, kənd sakinləri ilə görüşüb, onları yenidən doğma torpağa köçmələri və əmin-amanlıqda yaşamaları münasibətilə təbrik edib, işlərində müvəffəqiyyətlər arzulayıb.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

# Azərbaycan ilə Özbəkistan arasında dini-mənəvi sahədə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub

Noyabrın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Dünya dini liderlərinin II Bakı Sammitində iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Özbəkistan Prezidentinin müşaviri Rüstəm Kasımovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC DQİDK-nın mətbuat xidmətinə istinadla xəbər verir ki, Özbəkistan ilə Azərbaycan arasında tarixi kökləri olan dostluq münasibətlərinə toxunan komitə sədri ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin əhəmiyyətinə toxunub. Münasibətlərin təməlində əsrlərin dərinliklərindən gələn mədəniyyət, dil və adət-ənənələrin yaxınlığı, tarixboyu formalaşan mənəvi və ümumbəşəri dəyərlərin dayandığını qeyd edən Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin bu əlaqələri daha yüksəkliyə qaldırdığını və hazırda Prezident İlham Əliyev tərəfindən uzaqgörən siyasətlə uğurla davam etdirildiyini bildirib.

Ölkəmizdəki dini mühit haqqında məlumat verən Mübariz Qurbanlı Prezident İlham Əliyev tərəfindən dini sahəyə daim diqqət və qayğı göstərildiyini, ayrı-ayrı dini icmalara münasibətdə heç bir fərqin qoyulmadığını və bu münasibət sayəsində Azərbaycanın zəngin tolerantlıq və multikultural dəyərlərinin qorunduğunu deyib.

Dövlət komitəsinin fəaliyyət istiqamətləri barədə də danışan DQİDK sədri dini radikalizmə qarşı mübarizə sahəsində fikir və təcrübə mübadiləsinin aparılmasının zəruriliyinin, dini məsələlərlə bağlı ölkələrimizin müvafiq qurumlarının əməkdaşlığının önəmindən bəhs edib. Azərbaycan ilə Özbəkistan arasında iqtisadi, siyasi və mədəni sahələrdə əlaqələrin getdikcə genişləndiyini qeyd edən Özbəkistan Prezidentinin müşaviri Rüstəm Kasımov xalqlarımızın bir çox ortaq xüsusiyyətlərinin olduğunu qeyd edib. Bildirib ki, hərtərəfli əlaqələrin inkişafında hər iki ölkənin dövlət başçılarının siyasi iradəsinin mühüm rolu var. Özbəkistanla Azərbaycan arasında dini-mənəvi sahədə əlaqələrin daha da genişlənməsində maraqlı olduqlarını qeyd edən müşavir bu sahədə təcrübə mübadiləsi, əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Görüş zamanı, eyni zamanda, din sahəsində dövlət siyasətinin aparılması üzrə təcrübə mübadiləsi, dini ekstremizmin təzahürlərinin yayılmasının qarşısının alınması üzrə maarifləndirmə işlərinin aparılması, birgə tədbirlərin keçirilməsi kimi məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Ermənistanda miqrasiya ciddi problemə çevrilib

Hazırda Ermənistan üçün hələ də ən aktual problemlərdən biri ölkə əhalisinin xarici ölkələrə köçünün davam etməsidir. Miqrasiya prosesinin indiki templə davam edəcəyi təqdirdə Ermənistanın əhalisiz ölkəyə çevriləcəyi özlərinin sosioloqları tərəfindən də açıq etiraf olunur. Belə hesab edilir ki, real şəraitdə Ermənistanın ümumi təhlükəsizliyinə xələl gətirən əsas hallardan biri məhz əhalinin ölkəni tərk etməsidir.

Mövcud iqtidar da bu cür sosial-iqtisadi şərait fonunda miqrasiyanın qarşısının alınmasında artıq aciz olduğunu nümayiş etdirir. Ermənistanda belə bir fikir hakimdir ki, Nikol Paşinyan hökuməti hakimiyyətdə olduğu müddət ərzində digər çətinliklər kimi, miqrasiya problemi də öz həllini tapmayacaq.

Bu ilin ilk on ayı üçün aparılan hesablamalara görə, ölkədən miqrasiya edənlərin sayının artdığı məlum olub. Ermənistan hökumətinin rəsmi “Facebook” səhifəsində ölkənin Miqrasiya Xidmətinə istinadən paylaşılan statistikaya görə, ölkədən əhalinin köçü davam edir.

Ermənistanın baş naziri Nikol Paşinyan 2050-ci ilə qədər ölkə əhalisinin sayının 5 milyon nəfər olmasını strateji planı kimi açıqlayıb. Hazırda ölkə əhalisi 2,9 milyondur. İqtisadçılar isə hökumətin və Paşinyanın dediklərinə şübhəli yanaşırlar. Onlar bildiriblər ki, Ermənistandan işçi axını azalmır, əksinə, dayanmadan artır.

Erməni iqtisadçısı Tadevos Avetisyan deyib ki, təkcə son üç ay ərzində əmək bazarında 51500 nəfər işsiz azalıb. Bu tendensiya, əsasən, mühacirətin nəticəsidir. Yalnız son bir neçə ay ərzində rəsmi qeydiyyata alınmış işsizlərin 20 faizi başqa ölkələrdə iş taparaq Ermənistanı tərk edib. İşsizlər daha yaxşı bir həyat axtarışı üçün ölkəni tərk edirlər.

Milli Statistika Xidmətinin məlumatına görə, Ermənistan əhalisi azalmaqda davam edir: əhalinin sayı cari ilin oktyabr ayının 1-i ötən ilin doqquz ayı ilə müqayisədə 11,700 nəfər azalaraq 2.957.500 nəfər olub, 2017-ci ilin eyni dövrü ilə müqayisədə isə ölkə əhalisi 22,1 min nəfər azalıb.

“Joxovurd” qəzeti yazır ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra da qalan mövcud problemlər əhalinin yaşayış səviyyəsini minimuma endirib. Aparılan qeyri-konstruktiv siyasət nəticəsində bütün beynəlxalq enerji, neft-qaz layihələrindən kənarda qalan Ermənistan indi yalnız ianələrə ümid bəsləyir. Əyalət sakinləri deyirlər ki, dünyadakı maliyyə böhranı problemləri səbəbindən xaricdə yaşayan yaxınlarından da yardımlar kəsilib. Bu faktı statistika xidməti də təsdiqləyir. Məlumata əsasən, Ermənistana pul transferlərinin həcmi üç ildir azalan temp üzrə davam edir. Qeyd olunur ki, hər il ölkəni tərk edənlər sırasında yer alan 10 minlərlə vətəndaş sonradan geri qayıtmır. Onların əksəriyyəti 18-65 yaş arasında olan insanlardır. Bu proses davam etsə, bir neçə ildən sonra Ermənistan əhalisinin sayı bir milyondan da az olacaq.

Ermənistanda əksər hallarda kişilər evlərini tərk edir, bütöv kəndlər qadınların öhdəsinə qalır. Qeyd olunur ki, kişilərin ailələrini saxlamaq üçün yeganə pul qazanmaq yolu Rusiyaya getməkdir. Kişilər ölkəni tərk etdiyindən, kəndlərdəki qadınlar onların əvəzinə ağır işlərlə məşğul olurlar. Lakin daha böyük problemlər də var. Rəsmi məlumatlara görə, Ermənistanda işsizlik 7 faizə yaxındır. Lakin müxalifətin fikrincə, bu, reallıqdan çox uzaqdır. İşsizlik müavinətləri çox aşağı olduğundan əksər işsizlər qeydiyyatdan keçmirlər. Beləliklə, real rəqəmin 30-40 faizə yaxın olduğu bildirilir. Hüquq müdafiəçilərinin və müxalifət partiyalarının hesablamalarına görə, hər il 100 minə yaxın şəxs ölkəni tərk edir.

Araşdırmalar göstərir ki, hətta işğal altında olan Dağlıq Qarabağda da mövcud erməni əhalisinin sayında azalma baş verir. Ölənlərin sayı doğulanlardan çoxdur. Kütləvi işsizlik, ağır sosial-iqtisadi vəziyyət buradakı erməni əhalisini də xarici ölkələrə üz tutmağa məcbur edir.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Pambıq qəbulu məntəqələrinə 281 min tondan çox məhsul təhvil verilib

Noyabrın 13-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 281 min 506 ton məhsul təhvil verilib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 34,5 faiz çoxdur. Keçən il noyabrın 13-dək 209 min 368 ton pambıq yığılmışdı.

Pambıq yığımında Saatlı (40 min ton), Bərdə (32 min 576 ton), Ağcabədi (31 min 29 ton), Beyləqan (28 min 389 ton) və Biləsuvar (28 min 95 ton) rayonları irəlidə gedirlər.

Qeyd edək ki, Azərbaycanda pambıqçılığın yeni inkişaf dövrü bu istiqamətdə əsaslı tədbirlərin görüldüyü, bu sahənin inkişafını nəzərdə tutan Dövlət Proqramının qəbul olunduğu 2016-cı ildən başlayıb. 2015-ci ildə pambıq əkini sahələri 18,7 min hektar, məhsul istehsalı 35,2 min ton təşkil edib. Həmin illə müqayisədə 2016-cı ildə əkin sahələri 2,7 dəfə artırılaraq 51,4 min hektara, pambıq istehsalı isə 2,5 dəfə artaraq 89,4 min tona çatdırılıb.

Dövlət Proqramının qəbul olunduğu ildən bəri ən çox pambıq istehsalı 2018-ci ildə qeydə alınıb. Ötən il ölkə üzrə sahələrdən 233 min ton xam pambıq yığılıb. Bu, 2015-ci ilin göstəricisindən 6,54 dəfə çoxdur. 2018-ci ildə Azərbaycanda 132,5 min hektar sahədə pambıq əkilib, 2019-cu ildə isə pambıq əkini sahələrinin həcmi məhsuldarlığı az olan torpaqların əkin dövriyyəsindən çıxarılması hesabına 100,1 min hektaradək azaldılıb. Bu addım pambıqçılıqda orta məhsuldarlığı artırmağa, pambıq əkini dövriyyəsindən çıxarılmış torpaqlardan daha səmərəli istifadə etməyə imkan verib.

AZƏRTAC respublikada pambıq tədarükünə dair noyabrın 13-nə olan operativ məlumatı təqdim edir.

**13.11.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 13 noyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **281506,00** | **209368,22** | **134,5%** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 31029,56 | 21541,83 | 144,0% |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 7039,67 | 5063,42 | 139,0% |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 3553,02 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 937,81 | 1758,56 | 53,3% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 28389,82 | 19615,10 | 144,7% |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 32576,46 | 22544,06 | 144,5% |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 28095,21 | 19900,58 | 141,2% |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 1055,78 | 1069,81 | 98,7% |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 1538,55 | 1851,75 | 83,1% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 7096,40 | 7656,89 | 92,7% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 520,74 | 1047,67 | 49,7% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 18752,33 | 16345,52 | 114,7% |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 5914,62 | 6002,50 | 98,5% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 15380,34 | 9347,82 | 1,6 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 40001,25 | 27575,64 | 145,1% |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 24070,55 | 15643,02 | 1,5 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 15213,79 | 9517,61 | 1,6 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 892,70 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 11740,08 | 7452,39 | 1,6 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 936,92 | 1483,89 | 63,1% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 6179,52 | 5022,19 | 123,0% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 5036,60 | 4482,25 | 112,4% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan bir çox sahələr üzrə hətta inkişaf etmiş ölkələrdən də öndədir

### Bunu biz yox, nüfuzlu beynəlxalq maliyyə qurumları və reytinq agentlikləri deyir







*Əvvəli 1-ci səh.*

Yox, əgər bu hesabatlara da "qulp" qoysalar, deməli, bizim onları qərəz mərəzindən xilas etmək cəhdimiz əbəsmiş. Beləliklə, artıq hamının qəbul etdiyi məlum fakt: Dünya Bankının "Doing Business 2020" hesabatına görə, Azərbaycan ötən ildə olduğu kimi, bu il də 20 ən islahatçı ölkə sırasındadır. Üstəlik Azərbaycandan başqa ilk 25-likdə olan heç bir ölkə top-20 siyahısına daxil edilməyib. Çünki etalona yaxınlaşdıqca ən çox islahat aparan ölkə statusunu qorumaq da çətinləşir.

Başqa bir mühüm fakt: "Doing Business 2020" hesabatında Azərbaycan ümumilikdə 190 ölkə arasında 34-cü mövqedə qərarlaşıb. Belə ki, Azərbaycan biznesə başlama üzrə 9-cu, tikinti üçün icazələrin alınması üzrə 59-cu, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə 80-ci, əmlakın qeydiyyatı üzrə 44-cü, kreditlərin alınması üzrə 1-ci, kiçik investorların hüquqlarının müdafiəsi üzrə 105-ci, vergilərin ödənilməsi üzrə 40-cı, sərhəddə ticarət üzrə 83-cü, müqavilələrin icrası üzrə 28-ci və müflisləşmənin həlli indikatoru üzrə 47-cidir. Göründüyü kimi, Azərbaycanın "Doing Business 2020" hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Bu göstərici üzrə kompleks biznes islahatları çərçivəsində "Daşınar əmlakın yüklülüyü haqqında" qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklərlə uyğunlaşdırmaların aparılması daha çox səmərə verib.

Əmlakın qeydiyyatına gəldikdə, bu sahədə islahatlar aparmaq üçün "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda və Nazirlər Kabinetinin 134 və 453 nömrəli qərarlarında müvafiq dəyişikliklər edilib. Aparılan islahatlar nəticəsində əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən çıxarış elektron qaydada verilir. Əmlakını rəsmi qeydiyyata almaq istəyən şəxs müraciət etdikdə çıxarışlar onun istəyindən asılı olaraq 1, 3, 7 və 10 iş günündə hazırlanır. Bundan başqa, daşınmaz əmlakın kadastrı və qeydiyyatı ilə bağlı müstəqil və xüsusi müraciət mexanizmləri də yaradılıb. Əmlak Xidmətləri Məkanının istifadəyə verilməsi isə bütün xidmətlərin bir pəncərədən göstərilməsini təmin edib.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın bu il apardığı bir sıra islahatların növbəti "Doing Business" hesabatında nəzərə alınması proqnozlaşdırılır. Bunlara misal olaraq tikinti obyektinin inşasına və istismarına icazələrin alınması üzrə elektron müraciət sisteminin tətbiqini, hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə dövlət qurumları arasında inteqrasiyanın təmin edilməsi ilə cəmi 1 prosedurla 20 dəqiqə ərzində vahid platformada qeydiyyatın tamamlanmasını, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə elektron müraciət sisteminin təkmilləşdirilməsi əsasında cəmi 2 prosedurla 20 gün ərzində qoşulmanın həyata keçirilməsini qeyd etmək olar. Əlavə olaraq, "Yaşıl Dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə edilməsi imkanının yaradılması, gömrük bəyannamələrinin doldurulmasının daha da sadələşdirilməsi, dövlət satınalmaları üzrə elektron satınalma portalının yaradılması, Vergi Məcəlləsinə bir sıra dəyişikliklərin edilməsi və digər yeniliklərin də növbəti "Doing Business" hesabatında nəzərə alınacağı gözlənilir.

O da vurğulanmalıdır ki, aparılan kompleks islahatlar nəticəsində "Doing Business" və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırmaqla qeyri-neft sektoruna sərmayə qoyuluşunu asanlaşdırır. Azərbaycan 270 milyard dollardan çox sərmaye cəlb etməklə hər nəfərə düşən sərmayə həcminə görə regionun lider ölkəsidir. Bu ilin ilk 9 ayında da qeyri-neft-qaz sektorunda əsas kapitala yönəldilən vəsaitlər 8,9 faiz artaraq 6,3 milyard manatı üstələyib. Sərmayə cəlbinin artması isə həm yeni iş yerlərinin yaradılması, həm də əhalinin sosial rifah halının yaxşılaşdırılması deməkdir.

Bunlardan savayı, Azərbaycan "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" hesabatında da daha 14 pillə irəliləyərək 125 ölkə arasında 43-cü yerdə qərarlaşmaqla Baltik ölkələri istisna olmaqla, postsovet məkanında birinci olub. Postsovet məkanında Azərbaycanın ən yaxın izləyiciləri Rusiya 49-cu, Qazaxıstan isə 57-cidir. Xatırladaq ki, ölkəmiz bu indeksə görə 2015-2016-cı illərdə 71-ci, 2017-ci ildə 66-cı və 2018-ci ildə 56-cı yerdə idi. Azərbaycan qlobal istedad rəqabətliliyi indeksinə görə yuxarı orta gəlirli ölkələr arasında top üçlükdə qərarlaşaraq daxil olduğu regionda (Qərbi Asiya və Şimali Afrika ölkələri) yeddincidir.

Məlumat üçün bildirək ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi" hesabatı altı indikator əsasında hesablanır: istedada yaradılan şərait, istedadın cəlb edilməsi, istedadın inkişafı, istedadın ölkədə qalmasının təmin olunması, peşə və texniki təhsil, yüksək ixtisaslar. Azərbaycanın bu indikatorlar üzrə ən yüksək reytinqi peşə və texniki təhsil (25-ci yer), ən aşağı reytinqi isə istedadın inkişafı (81-ci yer) üzrədir. Digər indikatorlar üzrə vəziyyətimiz belə olub: istedada yaradılan şərait 48-ci, istedadın cəlb edilməsi 44-cü, istedadın ölkədə qalmasının təmin olunması 41-ci və yüksək ixtisaslar 68-ci yer.

"Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019"da Azərbaycan bir sıra sub-indikatorlarda daha öndə olub: ölkəmiz işə götürmənin asanlığı üzrə 1-ci, fəal əmək bazarı siyasəti üzrə 32-ci, işçi-işəgötürən əməkdaşlığı üzrə 30-cu, əməkhaqqının məhsuldarlığa uyğunluğu üzrə 14-cü, birbaşa xarici investisiyalar və texnologiya transferi üzrə 28-ci, istedadların cəlbi üzrə 17-ci, qadınların liderlik imkanları üzrə 34-cü, müəssisə daxilində əməkdaşlıq üzrə 26-cı, müəssisələr arasında əməkdaşlıq üzrə 19-cu, sosial müdafiə 33-cü, istedadların ölkədə saxlanılması 25-ci, həkim sıxlığı 26-cı, orta təhsilli əmək qüvvəsi üzrə 5-ci, orta təhsilli əhali üzrə 4-cü, ixtisaslı işçinin tapılması imkanı üzrə 30-cu, təhsilin iqtisadiyyata uyğunluğu üzrə 33-cü, orta təhsilin əmək bazarına uyğunluğu üzrə 20-ci, ali təhsilin əmək bazarına uyğunluğu üzrə 36-cı, ali təhsilli əhali üzrə 33-cü, alimlərin və mühəndislərin əlçatanlığı üzrə 23-cüdür.

Qeyd edək ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" hesabatı dünyanın lider universitetlərindən olan INSEAD Biznes Məktəbi, The Adecco Group və Tata Communications tərəfindən hazırlanır.

Amma bunlar da hələ hamısı deyil. Azərbaycan cari il qlobal rəqabətqabiliyyətlilik indeksinə görə 11 pillə üzrə irəliləyərək 141 ölkə arasında 58-ci olub. Ölkəmiz bu mərtəbəyə il ərzində 2,7 bal toplayaraq 62,7 balla yüksəlib. Real sektorun digər sahələri üzrə də ölkəmizin reytinqi xeyli yüksəkdir. Məsələn, bəzilərinə təəccüblü gəlsə də, Azərbaycan "Avianəqliyyat xidmətlərinin səmərəliliyi"ndə 129 ölkəni geridə qoyaraq 12-ci olub. Baxın görün bu sahə üzrə bizdən geridə hansı ölkələr var: Belçika (19-cu), Avstraliya (23-cü), Fransa (24-cü), Almaniya (28-ci), Türkiyə (31-ci), Kanada (37-ci), yaxın qonşularımızdan Rusiya (52-ci), Gürcüstan (86-cı), İran (132-ci) və s.

Azərbaycan "Dəniz limanları xidmətlərinin səmərəliliyi" indeksinə görə də öndədir. Bu sahədə dünya üzrə 25-ci olan ölkəmiz MDB-də birincidir. Avtomobil yolları infrastrukturuna görə isə 27-ci olaraq Böyük Britaniya, İtaliya, Türkiyə, Litva kimi ölkələri geridə qoymuşuq. Bütün dünyada keyfiyyətli avtobanları ilə ad qazanmış Almaniya isə Azərbaycanı cəmi 5 pillə üstələyə bilib.

Bax belə! Göründüyü kimi, biz rəqəmləri, göstəriciləri olduğu kimi - şərhsiz-flansız təqdim etdik. Onların arasında öyünülesi də var, bizi qane etməyənləri də. Hər ikisi də reallıqdan xəbər verir. O reallıqdan ki, onların nə artıq təbliğata ehtiyacı var, nə də qərəzli mövqedən təftiş olunmağa.

***Raqif MƏMMƏDLİ, "Azərbaycan"***

## Beynəlxalq sərgi Azərbaycan üçün səmərəli keçmişdir

Xəbər verildiyi kimi, noyabrın 5-10-da keçirilən II Çin Beynəlxalq İdxal Sərgisində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə Azərbaycanın 26 şirkətinin məhsulları nümayiş olunmuşdur.




Sərgi çərçivəsində Azərbaycan sahibkarları həmçinin xarici həmkarları ilə ixraca dair müzakirələr aparmış, distribütorluq və alqı-satqı müqavilələri imzalamışlar. Bundan başqa, II Çin Beynəlxalq İdxal Sərgisi çərçivəsində AzPROMO ilə ÇXR-in Kommersiya Nazirliyinin Ticarət İnkişafı Bürosu və Şanxay Xarici İnvestisiyaların İnkişafı Mərkəzi arasında anlaşma memorandumları, eləcə də Azərbaycanın Çindəki Ticarət Nümayəndəsi, Veynan İqtisadi və Texnoloji İnkişaf Zonası və "Xian Camel Guest E-Commerce Co.Ltd." şirkəti arasında Şaansi əyalətinin Veynan şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair Əməkdaşlıq Müqaviləsi imzalanmışdır.

## ƏƏSMN-in portalına 1 milyon 100 mindən çox baxış olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ötən ilin noyabr ayından istifadəyə verdiyi e-sosial.az internet portalına baxış sayı 1 milyon 100 mindən çox olmuş, portalın istifadəçilərinin sayı 105 mini ötmüşdür.

Prezident İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli fərmanına əsasən hazırlanan portal 16 elektron altsistemi və 2 reyestri özündə birləşdirir. "E-sosial" portalı vətəndaşlara onlar barədə toplanmış sosial məlumatlar (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və s. üzrə) bazasına çıxış imkanı yaradıb.

Vətəndaş özü barədə portalda toplanmış məlumatları daimi izləyə bilir, yaranan sosial-əmək hüquqlarının təminatı prosesinə ictimai nəzarəti həyata keçirir. Portal vətəndaşa habelə nazirlik tərəfindən təqdim olunan 100-dən çox sosial xidmət növündən yaranmış hüquqları müqabilində çevik rejimdə yararlanmaq imkanı verir.

Portalın "Android" əməliyyat sistemi üçün mobil tətbiqi fəaliyyət göstərir. "İOS" əməliyyat sisteminin tətbiqinin istifadəsi üçün işlər aparılır.

## Ötən ay İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 384 vətəndaş müraciət edib

Onların 132-si ərizə, şikayət və təklif xarakterli olmaqla məktub, 252-si telefon vasitəsilə olunub. Daxil olan müraciətlərin 130-u müayinə, müalicə və cərrahi əməliyyatlar, 51-i əlillik məsələləri, 30-u işə qəbul və əmək münasibətləri, 13-ü ambulator dərman təminatı, 18-i tibbi xidmətlər üzrə ödənişlər və 27-si digər mövzuları əhatə edib.



Telefon vasitəsilə daxil olan sorğu xarakterli müraciətlərin 115-i icbari tibbi sığortanın gələn ildən ölkə üzrə tətbiqi və sığorta haqları, bu sahəni tənzimləyən qanunvericiliklə bağlı olub. Müraciətlərin əksəriyyəti icbari tibbi sığortanın pilot layihə olaraq həyata keçirildiyi Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarının sakinləri tərəfindən edilib.

Bütün müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılıb. Agentliyin fəaliyyətinə aid olmayan müraciətlər isə baxılması üçün aidiyyəti üzrə digər təşkilatlara göndərilib.

Qəbul qrafikinə uyğun olaraq oktyabr ayında agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən 31 vətəndaş qəbul edilib. Qəbula gələn vətəndaşlar əsasən tibbi sərfin qarşılanması, ambulator dərman vasitələri və işlə təminat, əlillik dərəcəsinin təyin edilməsi, müayinə-müalicə, cərrahi əməliyyatlar və s. məsələlərlə bağlı müraciət ediblər. Vətəndaşların müraciətləri qanunvericiliyin tələblərinə uyğun şəkildə cavablandırılıb və onların həlli istiqamətində zəruri tapşırıqlar verilib.

## Gözdən əlillərin sosial müdafiəsi gücləndirilir

Azərbaycanda ildən-ilə güclənən sosial müdafiə tədbirlərinin əhatə etdiyi həssas əhali qruplarından biri də gözdən əlil şəxslərdir. Prezident İlham Əliyevin əlilliyi olan şəxslərə xüsusi qayğısı gözdən əlilliyi olan vətəndaşların da sosial təminatı və reabilitasiyası, rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımların atılmasına şərait yaradıb.

Təkcə son illər belə şəxslər üçün Bakının Nərimanov rayonunda 132 mənzildən ibarət yaşayış binası tikilib. Dövlət başçısının 11 iyun 2019-cu il tarixli sərəncamı həmin kateqoriyadan olan vətəndaşların mənzillə təminatına xüsusi qayğının növbəti göstəricisi olmaqla bu istiqamətdə növbəti addımın atılmasına imkan verib. Sərəncama əsasən, Bakı şəhərində gözdən əlilliyi olan şəxslər üçün inşa ediləcək çoxmənzilli binanın layihə-smeta sənədlərinin hazırlanması məqsədilə 300 min manat vəsait ayrılması nəzərdə tutulur. Müvafiq layihə-smeta sənədlərinin hazırlanması işlərindən sonra paytaxtda gözdən əlilliyi olan şəxslər üçün daha bir çoxmənzilli yaşayış binasının tikintisinə başlanacaq.

Bu cür şəxslərin cəmiyyətə inteqrasiyası sahəsində aparılan işlərdə Heydər Əliyev Fondu tərəfindən mühüm dəstək göstərilir. Fondun müvafiq layihəsi çərçivəsində ayrı-ayrı bölgələrdə (Naxçıvan, Gəncə və Yevlax) yaradılan regional informasiya mərkəzləri gözdən əlilliyi olanların və görmə qabiliyyəti zəif insanların informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarına malik olmasına xidmət edir.

Bakının Zabrat qəsəbəsində istifadəyə verilən yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi isə reabilitasiyayönümlü sosial xidmətlərin təşkilində mühüm əhəmiyyət daşıyır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişləri əsasında icra olunan layihələr çərçivəsində görmə imkanları məhdud şəxslərin də reabilitasiya məqsədli sosial xidmətlərlə təminatı üçün müvafiq işlər aparılır. Bu işlərin daha da genişləndirilməsi məqsədilə bu il görmə imkanları məhdud uşaqlar üçün daha 2 sosial reabilitasiya mərkəzi yaradılıb və hazırda 3 belə mərkəz fəaliyyət göstərir.

Adıçəkilən nazirlik tərəfindən gözdən əlilliyi olan şəxslər əlilliyə görə əmək pensiyası və ya müavinətlə, həmçinin onlardan 1-ci dərəcə əlilliyi olanlar həmin sosial təminat növləri ilə yanaşı, Prezidentin aylıq təqaüdü (100 manat) ilə təmin olunurlar. Keçən il reallaşan sosial islahatlar çərçivəsində bu müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması, minimum pensiya məbləğinin 200 manata çatdırılması təmin edilib. Həmçinin 1-ci dərəcə gözdən əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin (50 manat) aylıq təqaüdü təsis olunub. Bununla yanaşı, pensiya qanunvericiliyində I qrup əlilliyi olanlar (o cümlədən gözdən əlilliyi olanlar) üçün tələb edilən sığorta stajı ilə bağlı, habelə pensiyanın hesablanmasında bir sıra güzəştlər nəzərdə tutulub.

Sağlamlıq imkanları məhdud uşaqlar, o cümlədən görmə imkanları məhdudluğu səbəbi ilə bu kateqoriyadan olan uşaqlara yönələn aylıq müavinət də bu il 83 faiz artırılaraq 150 manata çatdırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü (50 manat) təsis olunub.

Eyni zamanda, Prezidentin 3 may 2019-cu il tarixli sərəncamı ilə I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların, o cümlədən bu kateqoriyalardan olan görmə imkanları məhdud insanların da ali təhsil müəssisələrində təhsil müddəti ərzində təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı sağlamlıq imkanları məhdud gənclər üçün Peşə Reabilitasiya Mərkəzinə istifadəyə verildiyi vaxtdan indiyədək 1800-ə yaxın gənc qəbul olunub ki, onlardan da bir qismi görmə imkanı məhdud şəxslərdir. Hazırda mərkəzdə peşə təlimində olan 135 gəncin də bir qismi məhz görmə imkanı məhdud gənclərdir.

## İqtisadiyyatımızın uğurları tarazlı və çoxşaxəli inkişafdan qaynaqlanır

*Əvvəli 1-ci səh.*

Təsadüfi deyil ki, indiyədək Azərbaycana 270 milyard dollardan çox investisiya yönəldilib ki, bunun da yarısı xarici sərmayədir.

Azərbaycan dövləti öz iqtisadi siyasətində hərtərəfli inkişafı əsas götürdü. Neft-qaz, ixrac layihələri ilə yanaşı, digər sahələrə də diqqət artırıldı. Həm də neftdən və qazdan əldə olunan gəlirdən səmərəli istifadə edilərək digər sahələr dirçəldildi. Neft gəlirləri ən ümdə problemlərin həllinə yönəldildi. İlk növbədə vəsait məcburi köçkünlər üçün yeni qəsəbələrin salınmasına xərcləndi. Su probleminin həllinə, digər infrastruktur layihələrinin həyata keçirilməsinə vəsait ayrıldı.

Azərbaycanın qazandığı uğurlar ondan qaynaqlanır ki, iqtisadiyyat tarazlı şəkildə inkişaf edir. Təkcə paytaxt və digər iri şəhərlər deyil, demək olar ki, bütün bölgələr yeni inkişaf mərhələsinə qədəm qoydu. Regionların inkişafına yönəldilən dövlət proqramları bu məsələdə önəmli rol oynadı. Proqramlar çərçivəsində həyata keçirilən çoxsaylı layihələr sayəsində bölgələrin qaz, su, işıq, yol problemləri həll olundu. Bu da iqtisadiyyatın inkişafına təkan verdi. Rayonlarda bir-birinin ardınca müəssisələr açıldı. Bu isə həm iqtisadiyyatın inkişafı, həm də sosial həyatın canlanması, insanların məşğulluğunun həlli, güzəranının yaxşılaşması deməkdir.

Son illərdə aqrar sahəyə ayrılan diqqət, tənəzzülə uğramış, az qala unudulmuş kənd təsərrüfatı sahələrinin dirçəldilməsi iqtisadiyyatın inkişafına təkan verən ümdə məsələdir. Prezident İlham Əliyevin ölkənin müxtəlif bölgələrində pambıq, barama, tütün, fındıq, çay, çəltik, sitrus



meyvələrinin və digər kənd təsərrüfatı bitkilərinin istehsalına dair keçirdiyi müşavirələr aqrar sahədə həlli vacib məsələlərə köklü bir baxış rolunu oynadı. Kənd təsərrüfatı sahələrinin keçmiş şöhrətinin özünə qaytarılması nəticəsində aqrar sektor ildən-ilə irəliləyir. Təkcə bu ilin ilk 9 ayında kənd təsərrüfatında 7 faizdən çox artım olub. Kənd təsərrüfatı məhsulları artdıqca, yeni müəssisələrin yaradılması məsələsi də gündəmə gəlir. Yeni fındıq bağları bar verdikcə bölgələrdə fındıqtəmizləmə sexi, yaxud zavodunun, üzümçülük genişləndirildikcə bu sahəyə aid emal müəssisələrinin açılması zərurəti yaranır. Eyni tələb pambıqçılıqla məşğul olan və digər kənd təsərrüfatı məhsulları yetişdirilən rayonlarda da ortaya çıxır.

Bu istiqamətdə də mühüm addımlar atılır. Son 15 ildə açılan yeni iş yerlərinin çox hissəsi regionların payına düşür. Bu, təbii ki, yeni müəssisələrin, xidmət obyektlərinin işə salınması, sahibkarlığın inkişafı sayəsində baş verir.

Azərbaycanda yoxsulluq səviyyəsinin 5 faizə enməsi də görülən ardıcıl tədbirlərin nəticəsidir. Bu elə göstəricidir ki, ona dünyanın bir çox ölkələri həsəd apara bilər.

Lakin yoxsulluğun olmaması təkcə o demək deyil ki, hər ailəyə qazanc gəlir. Yoxsulluğun minimuma enməsi həm də o deməkdir ki, Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə çatır. Ölkədə ölüm hallarının sayı son illərdə ya azalır, ya da sabit qalır. Bu da tutarlı göstəricidir, bir sıra müsbət amillərlə yanaşı, əhalinin sağlamlığına göstərilən qayğının nəticəsidir. Yeri gəlmişkən: bəlkə ikinci elə bir ölkə göstərmək çətin olar ki, orada dövlət başçısının göstərişinə əsasən bütün əhali ödəniş etmədən ildə bir dəfə tam tibbi müayinədən keçirilsin. Son 15 ildə Azərbaycanda 3200-dən çox məktəbin, 640-dan çox xəstəxana və tibb müəssisəsinin tikilməsi, yaxud təmir edilməsi deyilənlərin rəqəmlərdə təsdiqidir.

Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artırılıb. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır. Hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Yüz minlərlə məcburi köçkün pulsuz ev və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 dollar ekvivalentində aylıq müavinət verilir.

Bununla yanaşı, dövlət çalışır ki, hər ailənin özünün qazancı olsun. Məşğulluq probleminin daim gündəmdə qalması, həmin istiqamətdə görülən tədbirlərin davamlı olması da bunu göstərir. Əhalinin, xüsusilə kənd yerlərində insanların özünüməşğulluqla əhatə olunması üçün geniş tədbirlər görülür. Getdikcə daha çox insan özünüməşğulluğa cəlb olunur, arıçılıq, quşçuluq, bağçılıq və digər sahələrdəki fəaliyyətdən qazanc götürür. Ailəliklə bu qaydada çalışanlar da az deyil.

Ölkənin ərazisində çəkilən, yaxud əsaslı təmir olunan minlərlə kilometr magistral, eləcə də rayonları və kəndləri birləşdirən yollar insanlar üçün rahatlıq yaradıb. O cümlədən, indi kəndli yetişdirdiyi məhsulu rayon mərkəzindəki, yaxud istənilən şəhərdəki bazarlara çatdırmaqda çətinlik çəkmir. Yol həm də turizmin inkişafı üçün mühüm şərtlərdən biridir. Məhz yeni yolların rəvanlığı yurdumuzun illərlə gözdən-könüldən uzaq düşən bir sıra guşələrinin bu gün turizm mərkəzlərinə çevrilməsinə səbəb olub.

Bütün bu proseslər bir-birinə bağlı şəkildə həyata keçirilir və dayanmayan, irəliyə doğru gedən ümumi inkişafı şərtləndirir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Sabunçu qəsəbəsində sakinlərin problemləri dinlənilib

## Eldar ƏZİZOV: “Azərbaycan Prezidenti paytaxtın qəsəbələrinin daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq verib”

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun paytaxtın qəsəbələrində əhali ilə keçirdiyi görüşlərdən biri də Sabunçu rayonu Sabunçu qəsəbəsində sakinlərin problemlərinin öyrənilməsinə və aradan qaldırılmasına həsr olunmuşdu.



Yüzlərlə sakinin, həmçinin qonşu qəsəbələrin nümayəndələrinin iştirakı ilə təşkil olunan görüşdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı ilə yanaşı, Sabunçu Rayon İcra Hakimiyyətinin, paytaxtın və Sabunçu rayonunun müvafiq təsərrüfat və xidmət sahələrinin rəhbərləri də iştirak edərək sakinlərin müraciət və təkliflərini dinləmişlər.

Əvvəlcə Sabunçu Rayon İcra Hakimiyyəti başçısının Sabunçu qəsəbəsi üzrə nümayəndəsi Arif Osmanov qəsəbədə görülmüş işlərlə bağlı hesabat verib. Sakinlərin böyük fəallığı, yaradılan səmimi ab-hava şəraitində və ənənəvi “Açıq mikrofon” formatında keçən görüşdə çıxış edən qəsəbə sakinləri Bakı şəhərində, eyni zamanda, Sabunçu qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, həyata keçirilən siyasi kursa birmənalı dəstək ifadə ediblər.

Sakinlər qarşısında çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, bu gün paytaxtımız sürətlə inkişaf edir və müasir görkəm alır. Prezident İlham Əliyevin siyasəti ümumxalq xarakterlidir və bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır. Ölkə rəhbərinin dövlət qurumlarının məsul şəxsləri qarşısında qoyduğu əsas tələb vətəndaşların problemlərinin həllinə öz problemləri kimi yanaşmaqdır.

Paytaxtda aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərindən, o cümlədən çoxmənzilli binaların dam örtüklərinin təmiri, yeni liftlərin quraşdırılması, məhəllələrin əsaslı təmiri və s. məsələlərdən danışan Eldar Əzizov bildirib ki, Azərbaycan Prezidenti paytaxtın qəsəbələrinin daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq verib. Maraqlı dialoq şəklində keçmiş görüşdə 30-dan çox sakin çıxış edib, onları narahat edən məsələlər dinlənilib və müvafiq tapşırıqlar verilib. Müraciətlər əsasən su və kanalizasiya xətlərinin yenilənməsi, məhəllədaxili yolların təmiri və işıqlandırılması, fərdi yaşayış evlərinin sənədləşdirilməsi, qəsəbədə yeni uşaq bağçası və məktəb tikintisi, qəzalı binalarda yaşayanların yeni evlərə köçürülməsi və s. olub.

Yekunda bütün müraciət və təkliflər nəzarətə götürülüb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Erməni faşistlərini təmizə çıxarmaq cəhdi

## Nasistlərin təbliğatçıları Şimali Qafqazda meydan sulayır

Son illər Avropada ifrat sağçıların fəallaşması fonunda faşizm ideya və dəyərlərinin təbliği, ksenofobiyanın görünməmiş dərəcədə yayılması, irqi ayrı-seçkiliyin vüsət alması əsaslı narahatlıq doğurur. Belə mənfi təzahürlər nəzərdən keçiriləndə diqqət daha çox Almaniya, Niderland, yaxud İtaliya kimi ölkələrdə cərəyan edən hadisələrə yetirilir.

Bir vaxtlar elə bir təsəvvür yaranmışdı ki, İkinci Dünya müharibəsinin bitməsi və nasizmin süqutu ilə bu antibəşəri təmayüllər yox olmuşdur. Lakin hazırkı mərhələdə baş verən hadisələrin gedişi göstərir ki, məsələ kifayət qədər ciddidir: faşistlərə bəraət qazandırmağa, nasistləri qəhrəmanlaşdırmağa çalışanlar heç də az deyil və onların ardınca gələnlərin sayı artır. Dəhşətlisi isə odur ki, neonasistlərə dəstək verənlər adi vətəndaşlar yox, hakimiyyət strukturlarının nümayəndələridir. Tez-tez bu və digər Avropa ölkəsində ayrı-ayrı siyasətçilərin ifrat sağçılıq məzmunlu bəyanatları ictimaiyyətin diqqətini cəlb edir, cəmiyyətdə kəskin reaksiya doğurur.

Nə qədər qəribə olsa da, nasizmi qəhrəmanlaşdıranlar Avropada yox, dünyanın başqa bir regionunda - MDB məkanında çoxdandır fəaliyyət göstərirlər və Köhnə dünyadan onlara gözün üstə qaşın var deyən də yoxdur. Söhbət ilk növbədə Ermənistandan gedir. Rəsmi Yerevan nasizmin məşhurlaşdırılmasında artıq lider mövqeyinə çıxmışdır.

Ermənistanda faşizm təbliğatı çoxdan gedir. Hitlerçilərlə çiyin-çiyinə insanlığa qarşı saysız-hesabsız cinayətlər törətmiş erməni caniləri qəhrəman kimi təqdim olunur, onların nifrətamiz xatirəsi əbədiləşdirilir, abidələri ucaldılır. Belə mənfur “qəhrəman”lardan biri Njde ləqəbli cinayətkar general Qaregin Yegişeviç Ter-Arutyunyandır (1886-1955). Erməni millətçilik ideologiyasının banisi Njdenin bütün fəaliyyəti günahsız insanları qanına qəltan etməkdən ibarət olub. O, hələ 1912-ci ildə Bolqarıstana gedib tayqulaq Andraniklə birlikdə erməni bandit dəstəsi təşkil edərək guya Balkan xalqlarının azadlığı uğrunda silahlı mübarizəyə qoşulub. Əslində isə siyasi avantürist kimi ad çıxarmış Njdeni Balkanların taleyi maraqalandırmırdı. O, sadəcə olaraq, Balkan müharibəsindən özünün və mənsub olduğu “Daşnaksütyun” partiyasının məqsədləri naminə pul toplayır və sadəlövh erməniləri qızışdırıb səfərbər etməyə çalışırdı. Njde hətta şəxsi maraqları naminə “qardaş” serblərə qarşı vuruşmaqdan çəkinmirdi. Lakin Balkan “cəfakeş”inin planları ifşa olundu və o, Bolqarıstanı tərk etmək məcburiyyətində qaldı.

Qafqaza qayıdan Njde Birinci Dünya müharibəsi illərində rus çar ordusunun tərkibində Türkiyəyə qarşı vuruşur. “Qərbi Ermənistan”ı azadlığa çıxara bilməyən Njde 1918-ci ildə Vedibasarda, ardınca Zəngəzurda peyda olur. Yeganə vəzifəsi azərbaycanlıları bu ərazilərdən təmizləmək idi. Ümumiyyətlə, həmin illər Njde və digər erməni cəllad dəstələri Naxçıvan, Göyçə, Zəngəzur və Qarabağda azərbaycanlı əhalini kütləvi şəkildə qırmaqla məşğul olub. Njde Rusiya ərazisində də cəllad kimi ad çıxarmışdı. O, Rusiyada vətəndaş müharibəsi zamanı Qırmızı Orduya qarşı vuruşmuşdur.

Ermənistan sovetləşdikdən sonra Njde İrana qaçıb, oradan isə Fransaya, sonra Amerikaya üz tutub. Lakin bu ölkələrdə ermənilərdən dəstək ala bilmədiyindən Parisə qayıdıb, burada da tərəfdar tapa bilmədiyindən Bolqarıstana üz tutub. Nəhayət, Njde özünə yeni müttəfiq tapdı. Bu, Almaniyada hakimiyyətə gəlmiş nasist rejimi idi. Njde hələ 1934-cü ildə alman faşistləri ilə təmas yaratmaq üçün Hitlerə müraciət etmişdi. İkinci Dünya müharibəsi başlayandan sonra Njdenin və digər erməni generalının - Dro ləqəbli Drastamat Kanayanın faşistlərlə əməkdaşlığı sıxlaşır. Onların rəhbərlik etdikləri erməni legionu alman faşistlərinin işğal etdikləri ərazilərdə törədilən qırğınlarda fəal iştirak edib. Tarixi faktlar sübut edir ki, erməni faşistləri Ukrayna və Polşada, hitlerçilərin əsir düşərgələrində on minlərlə adamı qətlə yetirmiş, yəhudilərə və nasist ideologiyasının hədəf götürdüyü digər millətlərin nümayəndələrinə qarşı dəhşətli cinayətlər törətmişlər. Erməni legionunun özünün hesabatında təkcə Qərbi Krımda 20 mindən çox dinc sakinin öldürüldüyü təsdiqlənir.

Moskvada nəşr olunmuş “1941-1945-ci illər Böyük Vətən müharibəsi” ensiklopediyasında qeyd olunur ki, Njde müharibə dövründə Bolqarıstan ərazisində 30-dan çox erməni agentini səfərbər etmişdi. O, agentləri təxribat əməlləri törətmək məqsədilə sovet ordusunun arxasına göndərmişdi. Njde 1944-cü ildə Bolqarıstan ərazisinə daxil olan sovet qoşunlarının əlinə keçdi. Qaniçən erməni faşisti törətdiyi cinayətlərə görə həbs olunub 25 il müddətinə azadlıqdan məhrum edildi. Sonralar erməni millətçilərinin ona bəraət almaq cəhdləri rədd edildi və “qəhrəman” 1955-ci ildə Rusiyanın Vladimir şəhərindəki həbsxanada öldü...

İndi Ermənistan iqtidarı əli minlərlə günahsız adamın qanına batmış bu hərbi caniyə yeni don biçməyə çalışır - guya Njde əsl erməni vətənpərvəridir, onun “ideya”ları hələ də aktualdır və s. Ancaq erməni millətçiləri Njde və Dronun vermaxtla əlaqələrinin üstündən sükutla keçirlər, çünki bu “qəhrəman”ların alman nasistləri ilə sıx işbirliyi danılmaz faktdır.

Ermənistan rejimi 1956-cı ildə ölmüş Dronun cəsədinin qalıqlarını 2000-ci ildə Amerikadan gətirib Ermənistanda dəfn etmişdir. Yerevan küçələrindən birinə onun adı verilmişdir. Digər faşistə - Njdeyə isə xüsusi diqqət yetirilir. Ermənistanın paytaxtında meydanların birinə və metro stansiyasına onun adı verilmişdir. Njdenin, eləcə də Dronun şərəfinə xatirə sikkələri kəsilmişdir. Dəhşət doğuran hal odur ki, “njdeizm” adı altında irqçilik ideologiyası Ermənistanda orta və ali məktəb proqramlarına daxil edilmişdir və gənc nəsil bu ruhda tərbiyə edilir.

Üç il əvvəl Yerevan daha bir “faşist təntənəsi”nin şahidi oldu. Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyanın iştirakı ilə şəhərin mərkəzində Njdenin heykəli açıldı. Beləcə, faşizm qurbanlarının xatirəsi növbəti dəfə təhqir edildi.

Özü də ermənilərin faşizm təbliğatı Ermənistanla məhdudlaşmır. Rusiyadakı erməni icması hər il Njdenin Vladimirdəki qəbrini nümayişkaranə şəkildə ziyarət edir, erməni faşistini yad edir. 2013-cü ildə Ermənistanda çəkilmiş “Qaregin Njde” filmi Rusiyada da nümayiş etdirilmişdir.

Bundan əvvəl - 2012-ci ildə Rusiyanın Krasnodar diyarının Armavir şəhərində erməni kilsəsinin ərazisində Njdenin xatirə lövhəsi qoyulmuşdur. O vaxtdan bəri şəhər ictimaiyyəti xatirə lövhəsini sökmək tələbi ilə səlahiyyətli orqanlara - Baş Prokurorluğa və diyar prokurorluğuna müraciət etmişdir. Bu iki instansiya məsələnin həllini Armavir şəhər prokurorluğuna tapşırmış, sonuncu isə “top”u şəhər hakimiyyət orqanlarına ötürmüşdür. Armavir administrasiyası yaxasını kənara çəkmiş, nəticədə problem şəhər dumasında müzakirə mövzusu olmuşdur. Burada da elə bir irəliləyiş yoxdur, erməni faşistinin xatirə lövhəsi yerində qalır. Yerli mətbuat hesab edir ki, Njdenin xatirə lövhəsini qoruyub saxlayan güclü erməni lobbisidir. Bu isə o mənaya gəlir ki, faşist yırtıcılarının məşhurlaşdırılması davam edəcək, çünki onlar erməni millətçiləri üçün “qəhrəman”dırlar. Hələ bu, azmış kimi, erməni nasist cəlladı Njdenin xatirə lövhəsinə “əlavə” olaraq cari ayın əvvəllərində Armavirdə “erməni və rus xalqlarının dostluğu”na həsr olunmuş heykəltəraşlıq kompozisiyası açılmışdır. Kavkazplus.com bu “abidə”ni Njdenin qurbanlarını (onların arasında minlərlə rus da var) ələ salmaq kimi qiymətləndirir. Başqa sözlə, nasizmin erməni təbliğatçıları Rusiya ərazisində - Şimali Qafqazda heç nəyə, heç kimə məhəl qoymadan meydan sulayırlar.

Bütün bunlara baxmayaraq, Rusiyada erməni faşistlərinin qəhrəmanlaşdırılması rəsmi Moskvanı zərrə qədər də narahat etmir. Ötən ay Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova erməni faşisti Njdenin xatirə lövhəsinin sökülməsi tələbinə reaksiya verərkən halını pozmadan “bizdə kilsə dövlətdən ayrıdır” demişdir. Belə çıxır ki, erməni kilsəsinin Rusiya ərazisində nasistləri məşhurlaşdırmaq haqqı var.

Rusiya Xarici İşlər Nazirliyinin Ermənistan ərazisində nasizm təbliğatını görməməsi də təəccüb doğurur. Nazirliyin “Nasizmin qəhrəmanlaşdırılması ilə əlaqədar vəziyyət, neonasizm və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının təşviqinə xidmət edən təcrübənin yayılması haqqında” bu il açıqladığı məruzədə deyilir: “Ermənistanda nasizmi bərpa etmək, neonasist düşüncələri yaymaq üçün açıq-aşkar cəhd qeydə alınmamışdır. Eyni zamanda Ermənistanın keçmiş hakim Respublika Partiyası Üçüncü reyxlə əməkdaşlıq etdiyi barədə məlumat olan millətçi təmayüllü Q.Njde kimi mübahisəli siyasi xadimin xatirəsini əbədiləşdirmək üçün addımlar atmışdır”. Göründüyü kimi, məruzədə Njdenin nasizm fəaliyyətinin üstündən sükutla keçilir, o, vur-tut “mübahisəli siyasi xadim” kimi qələmə verilir.

2015-ci ilin martında BMT Baş Assambleyası “Nasizmin qəhrəmanlaşdırılması, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyün təşviqinə xidmət edən neonasizm və onun digər növlərinə qarşı mübarizə” adlı qətnamə qəbul etmişdir. Qətnamə Rusiyanın təşəbbüsü ilə qəbul olunmuşdur. Bu da təsadüfi deyil, çünki nasizmdən ən çox rusiyalılar əziyyət çəkmişlər. Təəccüb doğuran isə odur ki, Rusiya hakimiyyət orqanları ölkədə neonasizm təzahürlərinin qarşısını qətiyyətlə aldığı halda erməni icmasının faşizm təbliğatına münasibətdə elə bir tədbir görmür.

Prezident İlham Əliyev ötən ay MDB-nin Aşqabad sammiti zamanı Ermənistanda nasizmin qəhrəmanlaşdırıldığını nəzərə çarpdırmış, MDB məkanında faşistlərin məşhurlaşdırılmasına yer olmadığını vurğulamışdır. Təəssüf ki, bu bəyanat hələ də lazımi reaksiya doğurmamışdır.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***




# Bölgələrlə tanışlıq məktəblilərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayacaq

Noyabrın 13-də səhər saatlarında Şirvan Şəhər İcra Hakimiyyəti qarşısındakı meydanda şəhər rəhbərliyi, təhsil şöbəsinin məsul işçiləri və valideynlər “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının Quba-Qusar-Xaçmaz marşrutunun iştirakçıları olan şirvanlı şagirdləri şimal bölgəsinə yola salıblar.

AZƏRTAC xəbər verir ki, yola düşməzdən əvvəl tur-aksiya iştirakçıları Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri qoyub, xatirə şəkli çəkdiriblər. Sonra məktəblilər Heydər Əliyev Mərkəzinə gəlib, Ümummilli Liderin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən sənəd və fotoşəkillərlə tanış olublar. Səfərə yollananlar məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiyaya baxıb, onların ifa etdikləri mahnı və şeirləri dinləyiblər.

Qrup rəhbəri, şəhər 20 nömrəli tam orta məktəbin müəllimi Ərəstun Qasımov deyib: “Prezident İlham Əliyevin tapşırığına əsasən təşkil olunan maarifləndirici tur-aksiyanın iştirakçıları - Şirvan şəhər ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri dörd gün ərzində Quba-Qusar-Xaçmaz rayonlarının sosial-iqtisadi inkişafı ilə yaxından tanış olacaqlar. Səfər proqramımız olduqca zəngindir. İnanıram ki, məktəblilərimiz ölkənin şimal bölgəsinə səfərdən xoş təəssüratlarla qayıdacaqlar”.

Tur-aksiyada iştirak edən şəhər 20 nömrəli tam orta məktəbin XI sinif şagirdi Valehzadə Ümid sevinc hissini belə ifadə edib: “Çox sevinirəm. İlk dəfədir ki, tur-aksiyada iştirak edirəm. Şimal bölgəsini görmək çoxdankı arzum idi. Artıq bu arzum reallığa çevrilib. Bizə bu imkanı Prezident İlham Əliyev yaradıb. Bu diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdaram”.

Sonra tur-aksiyada iştirak edən məktəblilər Quba-Qusar-Xaçmaz marşrutu üzrə yola düşüblər.

* * *

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyada iştirak edən biləsuvarlı məktəblilər noyabrın 13-də Qəbələ-Şəki-Zaqatala marşrutu istiqamətində yola düşüblər.

Yolasalma mərasimində rayon rəhbərliyi, müəllim və valideynlər iştirak ediblər.

Tur-aksiya iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, dahi rəhbərin xatirəsini ehtiramla anıblar.





Qrupun rəhbəri, rayon icra hakimiyyətinin əməkdaşı Sahil Hüseynzadə bildirib ki, “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası gənclərə dövlət qayğısının təzahürüdür. Maarifləndirici tur-aksiya təkcə regionlarla tanışlıq məqsədi daşımır. Səfər zamanı şagirdlər müxtəlif maraqlı tədbirlərdə iştirak etmək imkanı da əldə edəcəklər.

Mərasim başa çatdıqdan sonra biləsuvarlı məktəblilər xüsusi avtobusla yola salınıblar.

* * *

Maarifləndirici tur-aksiyada iştirak edənlər arasında cəbrayıllı məcburi köçkün məktəblilər də var.

Məktəblilərin yola salınması münasibətilə Biləsuvarda cəbrayıllı məcburi köçkünlər üçün salınmış qəsəbədə yerləşən rayon icra hakimiyyətinin qarşısındakı meydanda mərasim keçirilib.

Tur-aksiya iştirakçıları, rayon icra hakimiyyəti və təhsil şöbəsinin rəhbər işçiləri, valideynlər əvvəlcə Ulu Öndər Heydər Əliyevin qəsəbədəki abidəsini və şəhidlərin xatirə kompleksini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Rayon icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Fəridə İbayeva səfər proqramı barədə məlumat verərək deyib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Cəbrayılın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri dörd gün ərzində Quba-Qusar-Xaçmaz rayonlarının tarixi abidələri, sosial-iqtisadi inkişafı və əsrarəngiz təbiəti ilə yaxından tanış olacaqlar. Azərbaycanın regionları ilə tanışlıq məktəblilərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır. Dövlət başçısı təhsilimizin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına diqqət göstərdiyi kimi, məktəblilərin dünyagörüşünün formalaşmasının, onların asudə vaxtlarının səmərəli keçməsinin də qayğısına qalır.

Tur-aksiya iştirakçısı, Tatar kənd orta məktəbinin X sinif şagirdi Mərdanlı Sərfinaz ekskursiyadan zəngin təəssüratlarla qayıdacaqlarına əmin olduğunu bildirib.

Sonra şagirdlər xüsusi avtobusla Quba-Qusar-Xaçmaz marşrutu istiqamətində yola çıxıblar.

* * *

Laçın rayonunun məktəbliləri Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyaya başlayıblar.

Laçınlı məktəblilər maarifləndirici tur-aksiyaya məskunlaşdıqları Ağcabədi rayonu ərazisindəki Taxtakörpü qəsəbəsindən yola salınıblar. Tur-aksiya iştirakçıları ilə keçirilən görüş zamanı Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli ölkəmizdə gənclərin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən, onların savadlı, vətənpərvər böyüməsi və fiziki inkişafı istiqamətində görülən işlərdən danışıb, məktəblilərə səfərlərinin xoş və mənalı keçməsi üçün tövsiyələr verib.

Bildirilib ki, ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədlərindən biri gənc nəslin bilikli, dünyagörüşlü formalaşması, vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. “Ölkəmizi tanıyaq” adı ilə keçirilən maarifləndirici tur-aksiyada da məqsəd gənclərin dünyagörüşünü daha da zənginləşdirmək, onlara vətənimizi daha yaxından tanıtmaq və sevdirməkdir.

Qeyd olunub ki, Quba-Qusar-Xaçmaz bölgəsində turizmin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm gözəl təbiəti, həm də tarixi məkanları ilə tanınır. Odur ki, hər bir şagird onlar üçün yaradılan bu şəraitdən istifadə edərək, bölgə haqqında geniş məlumatlar əldə etməli, səfərlərinin mənalı və səmərəli keçməsinə çalışmalıdır.

Təhsil işçiləri və valideynlər məktəblilərə səfərlə bağlı tövsiyələrini verib, onlara mənalı istirahət, zəngin təəssürat arzulayıblar.

Laçın rayon 37 nömrəli tam orta məktəbin şagirdi Xoşbəxt Əsədullayeva AZƏRTAC-a müsahibəsində deyib: “Tur-aksiyada iştirak etdiyimə görə çox sevinirəm. Bu gün Azərbaycanın Quba, Qusar, Xaçmaz rayonlarına səfərə çıxırıq. Bu bölgə haqqında televiziyadan, kitablardan məlumatım var. Bilirəm ki, gözəl təbiəti, dağları, meşələri olan, eyni zamanda, tarixi abidələrlə zəngin bölgədir. İnanıram ki, səfərdən xoş təəssüratlarla qayıdacağıq. Aksiyanın təşkilatçılarına minnətdarlığımı bildirirəm”.

Tur-aksiyada iştirak edən şagird və müşayiətçilər Ulu Öndər Heydər Əliyevin Taxtakörpü qəsəbəsindəki büstünü ziyarət etdikdən sonra xatirə şəkli çəkdirib, onlar üçün ayrılmış avtobusla Quba-Qusar-Xaçmaz istiqaməti üzrə yola düşüblər.

**14 noyabr Ümumdünya diabet günüdür**

# Şəkərli diabetə qarşı dövlət səviyyəsində mübarizə aparılır

İnsan sağlamlığına törətdiyi ciddi təhlükə ilə bağlı artan narahatlığa cavab olaraq Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 23 dekabr 2006-cı il tarixli qətnaməsi ilə 14 noyabr Ümumdünya diabet günü kimi qeyd edilir.

Məqsəd dünya ölkələri rəhbərlərinin, səhiyyə sisteminin, QHT-lərin, dünya ictimaiyyətinin, kütləvi informasiya vasitələrinin bəşəri bəlaya çevrilmiş şəkərli diabet xəstəliyinin müalicəsinə, bu xəstəliyi daşıyan insanların həyat keyfiyyətinin, iş fəaliyyətinin yaxşılaşdırılmasına hər cür kömək göstərməkdir. Ümumdünya diabet gününün mühüm cəhətlərindən biri də əhalini bu xəstəliyin yaranma səbəbləri və onun qarşısının alınmasında vacib olan amillərlə maarifləndirməkdir.

Dünyada, eləcə də ölkəmizdə ən çox yayılan xəstəliklərdən biri də şəkərli diabetdir. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, bu gün dünyada 393 milyondan çox insan şəkərli diabetdən əziyyət çəkir. Ən pisi odur ki, bir o qədər də insan bu xəstəliyin daşıyıcısı və ya ona meyillilik qrupunda olduğu halda bundan xəbərsizdir. Dünya üzrə hər 10 saniyədə 2 nəfərə şəkərli diabet diaqnozu qoyulur, 1 nəfər isə bu xəstəlikdən dünyasını dəyişir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da düzgün qidalanmamaq, qeyri-sağlam həyat tərzi artıq çəkiyə səbəb olur. Bu da şəkərli diabetin yaranmasına gətirib çıxarır.

Respublikamızda 212 min 670 nəfərdən çox adam şəkərli diabetlə qeydiyyatdadır, onlardan 1300 nəfəri uşaq və yeniyetmələrdir. Xəstəliyin artımını müqayisə etmək üçün 2005-ci ilə olan statistikaya nəzər salsaq görərik ki, o vaxt cəmi 56 min nəfər şəkərli diabet xəstəsi olduğu halda indi bu rəqəm 4 dəfə çoxdur. Mütəxəssislərin fikrincə, bu xəstəlik tamam başqa xəstəliklə əlaqədar həkimə müraciət edildikdə aşkarlanır, amma o vaxta qədər bu xəstəlik insan sağlamlığına öz zərərini vurur. Ona görə də xəstəliyin geniş yayılmasının qarşısını almaq üçün hər bir insan öz sağlamlığına biganə qalmamalı, vaxtında müalicə müəssisələrində özünü yoxlatmalı və müayinədən keçməlidir. Tibbi araşdırmalara görə, şəkərli diabetə meyilli olan insanlar qabaqlayıcı tədbirlər görməklə bu xəstəliyə tutulmaqdan xilas ola bilirlər. Həmin xəstəliklə əlaqədar pasiyentə nə qədər tez diaqnoz qoyularsa, müalicə tez başlanarsa, ağır və çox xərc tələb edən fəsadlar xeyli azalar.

MDB məkanında ilk dəfə Prezident İlham Əliyevin 23 dekabr 2003-cü il tarixli sərəncamı ilə “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Bu qanun ölkəmizdə şəkərli diabetə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyən edir, onun profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyir. Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlətin təminatlı yardım tədbirləri mütəmadi olaraq həyata keçirilir, onların müayinə və müalicəsi təşkil olunur. Şəkərli diabet üzrə Dövlət Proqramı, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin reyestri, müayinə və müalicəsi üzrə tədbirlərin maliyyələşdirilməsi, tibbi yardım və əmək hüquqları bu qanunla tənzimlənir. Hətta bu məsələdə beynəlxalq əməkdaşlıq da nəzərdə tutulur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti şəkərli xəstələrə dövlət qayğısının təşkili qaydalarını tənzimləyir. Hökumət “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı”, eləcə də “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası” haqqında qərar verib.

“Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Prezidentin 2004-cü il 12 fevral tarixli fərmanının icrası məqsədilə Nazirlər Kabineti tərəfindən “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı”, həmçinin “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası” təsdiq edilib.

Şəkərli diabet xəstələrinə dövlət qayğısını özündə əks etdirən dövlət proqramları (3 dəfə, hər biri 5 ilə hesablanmış) təsdiq olunub. Bu sənədlərin icrası məqsədilə hər il dövlət büdcəsindən ünvanlı olaraq vəsait ayrılır. Bu vəsait bilavasitə Səhiyyə Nazirliyinin mərkəzləşdirilmiş xərclər bölməsinə yönəldilir. Həyata keçirilən tədbirlər nəticəsində respublikada belə xəstələrin insulin və şəkərsalıcı dərmanlarla təminatında müsbət irəliləyiş yaranıb, 92 nəfər şəkər xəstəsi olan uşaq pompa insulin müalicəsinə keçirilib.

Ekspertlərin fikrincə, diabetin ağırlaşmasından yaranan fəsadların müalicəsinə, onun tam və keyfiyyətli profilaktik tədbirlərinə 5 dəfə çox xərc çəkilir. Əks halda xəstələrdə görmə qabiliyyətinin itirilməsi, ürək-damar xəstəlikləri, böyrək çatışmazlığı, ətraf hissələrin amputasiyası kimi fəsadlar daha da güclənə bilir. Diabetin fəsadlarının qarşısının alınması üçün daimi özünənəzarət və keyfiyyətli kompleks müalicə vacibdir.

Şəkər xəstələrinin 90 faizi ikinci qrupa aiddir. Təcrübədən və müşahidələrdən bəlli olub ki, sağlam həyat tərzi və müvafiq qabaqlayıcı tədbirlər gördükdə onların 70 faizində bu xəstəlik həyat tərzinə çevrilir və uzun ömür sürə bilirlər. Xəstəliyin tam idarə olunması üçün müvafiq özünənəzarətə, keyfiyyətli, standartlara uyğun müalicənin yerinə yetirilməsinə, fiziki fəallıq, sağlam qidalanma və maariflənməyə riayət edilməlidir. Şəkərli diabet xəstəliyində özünənəzarətə daha ciddi riayət olunmalıdır, çünki müəyyən edilmiş müalicə rejimindən bir qədər kənara çıxdıqda qanda şəkərin səviyyəsi arta bilir, onun çox olub bu səviyyədə qalması isə gələcəkdə mütləq ağırlaşmalara gətirib çıxarır. Şəkərin səviyyəsinin nəzarəti isə xəstə tərəfindən mütəmadi yoxlanılmalıdır. Respublikamızda yuxarıda söylənilən tövsiyələrə riayət edən, vaxtilə xəstəliyi çox ağır keçən, insulin tələbli bir neçə ikinci qrup şəkərli diabet xəstəsi hazırda heç bir dərman qəbul etmədən gümrah həyat tərzi yaşayır. Bu, hamıya örnək olmalıdır.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

## “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodunda qurulmuş texnoloji prosesin düzgün işləməsini təmin etmək məqsədilə alman istehsalı olan mal-material və ləvazimatların satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**

**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müfaviq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **03 dekabr 2019-cu il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 dekabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **12 dekabr 2019-cu il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Agricultural Competitiveness Improvement Project
## Loan No8286-Az

## AWARD NOTICE

**Support to inspection and state control by provision of instruments- Phytosanitary, Food safety and Veterinary tool kits for Azerbaijan Food Safety Institute**

This notice includes findings of bid evaluation for the bidding process held for the procurement of goods for **Support to inspection and state control by provision of instruments - Phytosanitary, Food safety and Veterinary tool kits for Azerbaijan Food Safety Agency.**

The Invitation for Bids was advertised in **www.akia.gov.az** and newspaper Azerbaijan, on June 28, 2019 and deadline for submission of bids was specified as July 29, 2019, 15:00 local Baku time.

Four (4) companies applied to the PMU for obtaining of the bidding documents:.

| No | Name of Company | Country origin | Date of apply |
|---|---|---|---|
| 1 | “Set Medical” LLC | Azerbaijan | 28.06.2019 |
| 2 | “Vetal Health Product” AS | Turkey | 22.07.2019 |
| 3 | “Inshaat –F” LLC | Azerbaijan | 30.07.2019 |
| 4 | “Albatros Healthcare” LLC (Azerbaijan) | Azerbaijan | 07.08.2019 |

All four Companies submitted their bids by the deadline, August 09, 2019 by 15:00. Read-out prices were as follows:

| Name | Currency | Amount(s)(VAT included. DDP terms) | Comments on Bid opening |
|---|---|---|---|
| “Inshaat –F” LLC (Azerbaijan) | AZN | **525 835.5** | Bid Security duration is less than required. |
| “Vetal Health Product” AS (Turkey) | USD | **242 431.2** | No Bid Security submitted. CIP Baku terms was proposed. |
| “Set Medical” LLC(Azerbaijan) | USD | **234 939.29** | None |
| “Albatros Healthcare” LLC (Azerbaijan) | USD | **276 070.91** | None |

Considering the detailed check results, the Evaluation Committee issued the recommendation to award the Contract to substantially responsive and lowest evaluated Bidder **“Set Medical” LLC(Azerbaijan) with the Contract amount 234 939.29 (two hundred thirty four thousands nine hundred thirty nine United States Dollars and 29 cents)** included VAT. Terms of supply is DDP.

**Contract was signed on November 07, 2019.**

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## Şəmkir rayonunda Uşaq Bərpa Mərkəzinin tikintisi işlərinin satın alınması üzrə keçirilən
## *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 1000 (bir min) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: BIK CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iştirakçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **22 noyabr 2019-cu il saat 15:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **22 noyabr 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində açıq tender metodu ilə Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin avadanlıqlarla təchizatı işlərinin satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi “Araş” MMC olmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində açıq tender metodu ilə “Gözdən əlillər üçün tikintisi nəzərdə tutulan 12 mərtəbəli 288 mənzilli yaşayış binasının layihələndirilməsi” işlərinin satın alınması ilə əlaqədar keçirilmiş satınalma müsabiqəsinin qalibi “AM.M Line” MMC və təkliflər sorğusu metodu ilə “Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə” altsisteminin yaradılması xidmətləri”nin satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi “AİSTGROUP” MMC olmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən “Azərbaycan” qəzetinin 08 noyabr 2019-cu il tarixli 249 (8272) nömrəsində dərc edilmiş “Minik avtomobilləri”nin satın alınması üzrə elektron açıq tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2019-cu il üçün xərclər smetasında “Digər nəqliyyat xidmətləri” (223200) maddəsinə ayrılmış vəsaitlər hesabına kotirovka sorğusu elan edir.***

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18.11.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, S.Əsgərova küç., 85 Telefon: (012) 594-17-26**

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC
## məişət və sənaye tipli elektrik avadanlıqların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. Məişət və sənaye tipli elektrik avadanlıqların satın alınması**

**İştirak haqqı - 200 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05 dekabr 2019-cu il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **13 dekabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **16 dekabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

“FoxExpress” MMC-yə (VÖEN: 1404187861) məxsus kassa mədaxil orderləri (seriya ƏXZ № 931501 - seriya ƏXZ № 931600) itdiyi üçün etibarsız sayılır.

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı

**MİRƏLƏSGƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı

**MİRƏLƏSGƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov və YAP Xətai rayon təşkilatı Aparatının kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin Maliyyə şöbəsinin müdiri Rəna Qurbanovaya anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı

**MİRƏLƏSGƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidova qardaşı

**MİRƏLƏSGƏR SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və qardaşları Miryusif, Mirhafiz və Mirsəlim Seyidovlar Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidova qardaşı

**MİRƏLƏSGƏR SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İşlər müdiri Firudin Hacıyev və İşlər müdirinin müavinləri Şadət Nağıyev, Fazil Səfərəliyev və Kamran Məmmədov Maliyyə şöbəsinin müdiri Rəna Qurbanovaya anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İşlər İdarəsinin kollektivi Maliyyə şöbəsinin müdiri Rəna Qurbanovaya anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı

**MİRƏLƏSGƏR SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi ədliyyə veteranı

**HÜSEYNAĞA HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Memarlar İttifaqının İdarə Heyətinin üzvü, Əməkdar memar Elxan Əsədova anası

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Xətai Rayon Məhkəməsinin sədri

**NAZİM TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8902
Sifariş 3824
Qiyməti 40 qəpik